ŞƏFFAFLIQ AZƏRBAYCAN

**Azərbaycanda**
**"Açıq Hökumətin Təşviqinə**
**dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət**
**Planı"nın**

# Monitorinq Hesabatı

(Sentyabr 2013 – Dekabr 2014-cü il)

**Bakı – aprel 2015**

## MİNNƏTDARLIQ

*Bu hesabatın hazırlanması ABŞ Beynəlxalq İnkişaf Agentliyi (USAID) vasitəsilə Amerika xalqının dəstəyi sayəsində mümkün olmuşdur. Hesabat "Şəffaflıq Azərbaycan" Korrupsiyaya Qarşı Mübarizə İctimai Birliyi tərəfindən icra olunan "Azərbaycan Şəffaflıq Tərəfdaşlığı Layihəsi" (AŞT) çərçivəsində hazırlanıb. Məzmuna görə, "Şəffaflıq Azərbaycan" Korrupsiyaya Qarşı Mübarizə İctimai Birliyi məsuliyyət daşıyır və USAID və ABŞ hökumətinin mövqeyini əks etdirməyə bilər.*

*"Şəffaflıq Azərbaycan" təşkilatı bu hesabatı ərsəyə gətirmiş ekspertlərə - Qalib Bayramov, Ələsgər Məmmədli, Hafiz Həsənov, Dünya Camalova, Fuat Rəsulov və Rəcəb İmanovaya, hesabatın redaktorları Sabit Bağırov və Veronika Kretuya, hesabatı azərbaycancadan ingiliscəyə tərcümə etmiş Əli Novruzova, verdikləri töhfəyə görə isə bütün fiziki şəxslərə, o cümlədən hökumət və qeyri-hökumət təşkilatlarının nümayəndələrinə öz dərin minnətdarlığını bildirir. Layihə heyəti "Azərbaycan Şəffaflıq Tərəfdaşlığı Layihəsi" üzrə bütün tərəfdaşlara, xüsusilə də sorğunun aparılmasında iştirak etmiş və QHT Platformasına qoşulmağa öz razılığını bildirmiş bütün Azərbaycan QHT-lərinə təşəkkür edir. Xüsusi təşəkkürlər AŞT Layihəsinə göstərdikləri dəyərli və davamlı dəstəyə görə USAID/Azərbaycan təşkilatının heyətinə ünvanlanır.*

Müəlliflər: Şəffaflıq Azərbaycan təşkilatının araşdırma qrupu

Bu hesabatda təqdim olunan məlumatların düzgünlüyünü yoxlamaq üçün bütün səylər göstərilmişdir. Məlumatlar 2014-cü ilin 31 dekabr tarixinə qədər olan dövr üçün düzgün hesab olunmalıdır. "Şəffaflıq Azərbaycan" təşkilatı bu məlumatların digər məqsədlər üçün və ya kontekstdən kənar istifadəsinə görə heç bir məsuliyyət daşımır.

© 2015 Müəlliflik hüququ Şəffaflıq Azərbaycan" Korrupsiyaya Qarşı Mübarizə üzrə İctimai Birliyinə məxsusdur.

# GİRİŞ

Azərbaycan Respublikası 2011-ci il sentyabrın 20-də, BMT Baş Assambleyasının 66-cı yığıncağında elan olunmuş Açıq Hökumət Tərəfdaşlığına (AHT) qoşulan 61 dünya ölkəsindən biridir. Ölkəmiz Açıq Hökumət Tərəfdaşlığına qatılmaqla açıq hökumətin təşviqi və şəffaflığın artırılması ilə əlaqədar öz fəaliyyətini təkmilləşdirmək, bu sahədə aparılan təcrübə mübadiləsinə töhfə vermək və beynəlxalq səylərə qoşulmaq niyyətini bildirib.

"Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı" (AHTMFP) Azərbaycan Prezidentinin 5 sentyabr 2012-ci il tarixli fərmanı ilə təsdiqlənib[1]. Milli Fəaliyyət Planının əsas prinsip və dəyərləri Azərbaycan Respublikasında mərkəzi və yerli icra hakimiyyəti orqanlarının fəaliyyətində şəffaflığın artırılması, hesabatlılığın təkmilləşdirilməsi, ictimai iştirakçılığın genişləndirilməsi və yeni sosial texnologiyaların tətbiqi ilə əlaqədardır.

Azərbaycan Respublikasının Korrupsiya ilə Mübarizə Komissiyası Açıq Hökumətin Təşviqi üzrə Milli Fəaliyyət Planının işlənib hazırlanmasına və tətbiqinə görə məsuliyyət daşıyır. Fəaliyyət Planı Korrupsiya ilə Mübarizə Komissiyası tərəfindən 2012-ci ilin əvvəllərində işlənib hazırlanmışdır.

Azərbaycan Hökuməti Açıq Hökumət Təşəbbüsü (AHT) üzrə bir sıra öhdəliklər götürmüşdür. Bu öhdəliklər sırasında hüquqi aktlar və onlara edilən dəyişikliklərin vaxtında ictimaiyyətə təqdim olunması və onlara əlçatanlıq, xidmət sahəsində fəaliyyət göstərən dövlət orqanlarının işində və ictimai əhəmiyyətli hüquqi aktların qəbulu prosesinə vətəndaşların və

[1] Fəaliyyət Planının tam mətni üçün bax: Hesabata Əlavə 1.

vətəndaş cəmiyyəti institutlarının cəlb edilməsi ilə bağlı öhdəliklər də vardır.

Milli Fəaliyyət planının qiymətləndirmə metodologiyası əsasında aparılan monitorinq konkret öhdəliklərin həyata keçirilməsi istiqamətində 2013-cü ilin sentyabrından 2014-cü ilin dekabrına qədər olan dövrdə həyata keçirilən fəaliyyətləri əhatə edir.

Açıq Hökumətin Təşviqi üzrə Milli Fəaliyyət Planının qəbul edilməsi ilə Azərbaycan Hökumətinin öz üzərinə götürdüyü öhdəliklər aşağıdakı istiqamətlər üzrə qruplaşdırılıb:

1) *İnformasiya əldə edilməsinin asanlaşdırılması;*
2) *Dövlət orqanlarının öz fəaliyyətləri barəsində ictimaiyyətə müntəzəm məlumat verməsi;*
3) *Normativ hüquqi aktların vahid elektron bazasının fəaliyyətinin təkmilləşdirilməsi;*
4) *Dövlət orqanlarının fəaliyyətində ictimaiyyətin iştirakının genişləndirilməsi;*
5) *Elektron xidmətlərin təkmilləşdirilməsi;*
6) *Maliyyə nəzarətini həyata keçirən orqanların fəaliyyətində şəffaflığın artırılması;*
7) *Vergi nəzarəti və yoxlamaları prosesində şəffaflığın artırılması;*
8) *Mineral ehtiyatların hasilatı ilə məşğul olan sənaye sahələrində şəffaflığın artırılması;*
9) *Açıq hökumət təşəbbüsü üzrə ictimai maarifləndirici materialların nəşri və əhali arasında paylanması.*

Bu monitorinq hesabatında yuxarıda göstərilən öhdəliklərdən 5-nin (1-ci, 2-ci, 4-cü, 5-ci və 8-ci istiqamətlər) nə dərəcədə icra olunduğu və onların cari vəziyyəti qiymətləndirilir, eləcə də icra prosesində başlıca çətinliklərin nədən ibarət olduğuna və növbəti mərhələlərlə əlaqədar tövsiyələrə xüsusi diqqət yetirilir.

# I. MONİTORİNQİN METODOLOJİ ƏSASLARI

“2012-2015-ci illərdə Açıq Hökumətin Təşviqi üzrə Milli Fəaliyyət Planı”nın icrasının monitorinqi metodologiyası “Şəffaflıq Azərbaycan” təşkilatının sifarişi ilə Rusiyanın Sankt-Peterburq şəhərində fəaliyyət göstərən İnformasiya Azadlığının İnkişafı İnstitutunun ekspertləri tərəfindən hazırlanıb və Moldovanın Açıq Hökumət İnstitutunun eksperti Veronika Kretu tərəfindən təkmilləşdirilib. 2012-2015-ci illərdə Açıq Hökumətin Təşviqi üzrə Milli Fəaliyyət Planı”nın icrasının gedişi ilə əlaqədar ikinci qiymətləndirici monitorinq aşağıdakı məqsədləri daşıyır:

- *2013-cü ilin sentyabr ayından 2014-cü ilin dekabr ayınadək* olan *dövr üçün AHMFP-də planlaşdırılan, öhdəliklərin icra səviyyəsinin qiymətləndirilməsi;*
- *MFP-nin icrasının bir hissəsi üzrə öhdəliklərin icrasına təsir göstərən başlıca çətinliklərin müəyyənləşdirilməsi və növbəti mərhələlər üçün xüsusi tövsiyələrin hazırlanması;*
- *2013-cü ilin ilk monitorinq mərhələsində ekspertlər tərəfindən verilmiş tövsiyələrin icrası üzrə* davam etmək.

Qiymətləndirmə metodologiyası həm kəmiyyət, həm də keyfiyyət alətlərini özündə ehtiva edir. Kəmiyyət qiymətləndirməsi komponentinə bütün öhdəliklərin nə dərəcədə yerinə yetirilməsinin müəyyənləşdirilməsi, keyfiyyət qiymətləndirməsi komponentinə isə həm hökumət və həm də vətəndaş cəmiyyətinin ekspertlərinin mövqeyinin öyrənilməsi daxildir.

Qiymətləndirmə aşağıdakı mərhələləri əhatə edib:

*• AHTMFP-nin reallığının, uyğunluğunun və yenilik dərəcəsinin nəzərdən keçirilməsi;*

*• AHTMFP-də əksini tapan bütün öhdəlik üzrə nailiyyət səviyyəsinin müəyyənləşdirilməsi üçün müxtəlif səviyyəli qiymətləndirmə dərəcələrinin işlənib hazırlanması;*

*• Mərkəzi və yerli icra hakimiyyətlərinin (MYİH) şəbəkə saytlarının monitorinqini aparmaqla ora yerləşdirilmiş zəruri məlumatların, MYİH-ə göndərilən sorğular vasitəsilə əldə edilən cavabların, hüquqi-normativ aktların, Nazirlər Kabinetinin illik hesabatının, Hüquqi Aktların Dövlət Qeydiyyatının elektron versiyasının təhlil olunması;*

*• Toplanmış ümumi məlumatların sistemləşdirilməsi, qruplaşdırılması və təhlil olunması;*

*• Tapıntıların, nəticələrin ümumiləşdirilməsi və tövsiyələrin işlənib hazırlanması.*

Yuxarıda qeyd olunduğu kimi, AHTMFP 9 öhdəlik qrupundan ibarətdir. Hər bir öhdəlik qrupunun əsas və köməkçi fəaliyyət növləri mövcuddur. Odur ki, AHTMFP üzrə hər bir fəaliyyət növləri uyğun bal göstəriciləri əsasında qiymətləndirilir. Onlar icra səviyyəsini xarakterizə etməklə hər bir xal göstəricisinin ifadə etdiyi nəticələr aşağıda təsvir olunur:

***a) 0-3 bal şkalası əsasında fəaliyyət növləri üzrə icra səviyyəsinin qiymətləndirilməsi:***

*- 0 bal – hər hansı əsas və ya köməkçi fəaliyyət növünün icra edilmədiyini bildirir;*

*- 1 bal – əsas və ya köməkçi fəaliyyət növünün 20%-dən az hissəsinin icra olunduğunu bildirir;*

*- 2 bal – əsas və ya köməkçi fəaliyyət növünün 20-70% aralığında icra olunduğunu bildirir;*

*- 3 bal – əsas və ya köməkçi fəaliyyət növünün 70%-dən çox hissəsinin icra olunduğunu bildirir.*

***b) 0-2 bal şkalası əsasında fəaliyyət növləri üzrə icra səviyyəsinin qiymətləndirilməsi:***

*- 0 bal – hər hansı fəaliyyət növünün icra edilmədiyini bildirir;*

*-1 bal – icraatının ləngidiyini, lakin artıq bəzi hazırlıq işlərinin görüldüyünü bildirir;*

*- 2 bal – fəaliyyətin icrasının tamamlandığını bildirir.*

Əsas və ya köməkçi fəaliyyət növləri üzrə ballar toplanaraq, eyni öhdəliklər qrupunun bal şkalası əsasında orta qiymət hesablanır.

## II. AÇIQ HÖKUMƏTİN TƏŞVİQİNƏ DAİR 2012-2015-Cİ İLLƏR ÜÇÜN MİLLİ FƏALİYYƏT PLANI ÇƏRÇİVƏSİNDƏ ÖHDƏLİKLƏRİN İCRASININ QİYMƏTLƏNDİRİLMƏSİ

*(hesabat dövrü 2013-cü il sentyabrından 2014-cü ilin dekabrının sonuna kimi olan müddəti əhatə edir)*

Milli Fəaliyyət Planında ümumilikdə 9 öhdəlik üzrə 37 əsas və 16 sub (alt) fəaliyyət nəzərdə tutulur. Sub fəaliyyətlər mövcud metodologiyaya əsasən qiymətləndirmənin dərinliyini və keyfiyyətini artırmaq üçün metodologiya müəllifləri tərəfindən işlənib hazırlanmışdır[2].

Milli Fəaliyyət planının 9 öhdəlik üzrə 24 fəaliyyət istiqaməti 2012-ci ildə, 13-ü isə 2013-cü ildə başlayıb. 8 istiqamət üzrə fəaliyyətlərin mütəmadi olaraq 2015-ci ilin sonuna kimi həyata keçirilməsi nəzərdə tutulub. 17 fəaliyyət istiqaməti üzrə işlər yekunlaşıb, 20 istiqamət üzrə işlər davam edir.

**Cədvəl 1. Fəaliyyətlərin başlamasının və davamlılığının statistikası[3]**

| **Fəaliyyət istiqamətləri** | **2012-ci ildə başlayanlar** | **2013-cü ildə başlayanlar** | **Mütəmadi fəaliyyətlər** | **Bitənlər** | **Davam edənlər** |
|---|---|---|---|---|---|
| | **A** | **B** | **C** | **D** | **E** |
| 1.İnformasiya əldə edilməsinin | 2 | 1 | 0 | 3 | 0 |

[2] Bax. Əlavə 2

[3] A və B sütunlarınn cəmi həm şaquli, həm də üfiqi istiqamətdə D və E sütunlarına cəminə bərabərdir.

| | | | | | |
|---|---|---|---|---|---|
| asanlaşdırılması | | | | | |
| 2.Dövlət orqanlarının öz fəaliyyətləri barəsində ictimaiyyətə müntəzəm məlumat verməsi | 6 | 1 | 2 | 2 | 5 |
| 3. Normativ hüquqi aktların vahid elektron bazasının fəaliyyətinin təkmilləşdirilməsi | 1 | 0 | 1 | 0 | 1 |
| 4. Dövlət orqanlarının fəaliyyətində ictimaiyyətin iştirakının genişləndirilməsi | 4 | 0 | 3 | 1 | 3 |
| 5. Elektron xidmətlərin təkmilləşdirilməsi | 1 | 4 | 1 | 3 | 2 |
| 6. Maliyyə nəzarətini həyata keçirən orqanların fəaliyyətində şəffaflığın artırılması | 0 | 7 | 0 | 5 | 2 |
| 7. Vergi nəzarəti və yoxlamaları prosesində şəffaflığın artırılması | 3 | 0 | 0 | 3 | 0 |
| 8. Mineral ehtiyatların hasilatı ilə məşğul olan sənaye sahələrində şəffaflığın artırılması | 3 | 0 | 0 | 0 | 3 |
| 9. Açıq hökumətin təşviqi üçün görülən tədbirlərlə bağlı maarifləndirmənin və əməkdaşlığın həyata keçirilməsi | 4 | 0 | 1 | 0 | 4 |
| **CƏMİ:** | **24** | **13** | **8** | **17** | **20** |

Milli Fəaliyyət Planının monitorinq olunan bəndlərində nəzərdə tutulan fəaliyyətlərin böyük əksəriyyətində icraçı qismində "mərkəzi və yerli icra hakimiyyəti orqanları" müəyyənləşdirildiyi üçün layihə heyəti monitorinq metodologiyasına uyğun olaraq ötən hesabat dövründə monitorinqə cəlb ediləcək mərkəzi və yerli icra hakimiyyətlərinin seçim metodologiyasını hazırlayıb. Metodologiya monitorinqə bütün mərkəzi icra hakimiyyətləri (nazirliklər, dövlət komitələri, agentliklər və s.), Bakı Şəhər İcra Hakimiyyəti və paytaxtın rayonlarının icra hakimiyyətləri, respublika əhəmiyyətli şəhərlər və hər iqtisadi regiondan 3 yerli icra hakimiyyətinin cəlb olunmasını nəzərdə tutur. Ötən hesabat dövründən fərqli olaraq, bu dəfə Milli Fəaliyyət Planının icrasına qoşulan iki qurum - Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti və Nəqliyyat Nazirliyinin Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzi də monitorinq olunub. Beləliklə, monitorinqə cəlb olunan mərkəzi və yerli icra hakimiyyətlərinin ümumi sayı 94 olub.

Monitorinq müddətində rəsmi sorğu göndərilən 46 yerli icra hakimiyyəti orqanından cəmi 6-sı, başqa sözlə desək, 13 faizi sorğuya cavab göndərib. Bunlar Astara, İsmayıllı, Lənkəran, Qobustan, Qusar və Sabunçu rayon icra hakimiyyətləridir. Onlardan 2-si (Lənkəran və Sabunçu) fəaliyyət planının icrasına dair hesabatın ildə bir dəfə qanunvericilikdə nəzərdə tutulan orqanlara (Nazirlər Kabineti və Azərbaycan Respublikası Korrupsiyaya Qarşı Mübarizə Komissiyasına) təqdim olunduğunu əsas gətirərək informasiya verməkdən imtina edib. İnformasiya verməkdən imtina etmiş qurumlarla telefon danışıqları aparılıb və yenidən onlara məktubla müraciət olunsa da, müsbət nəticələr əldə edilməyib. Dörd yerli icra hakimiyyəti orqanı (Astara, İsmayıllı, Qusar və Qobustan) isə görülən işlərə dair ümumi xarakterli hesabatı təqdim ediblər. Beləliklə, iki rayon məlumat

verməkdən imtina etdiyinə görə onlar və digər 40 yerli icra hakimiyyəti üzrə qiymətləndirmə yalnız onların internet resurslarında olan məlumatlar əsasında aparılıb.

Monitorinq çərçivəsində AHT üzrə Fəaliyyət Planını icra etməli olan ümumilikdə 40 mərkəzi icra hakimiyyəti orqanına, eyni zamanda, Mərkəzi Bank, Hesablama Palatası və Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinə (Ombudsman) yazılı sorğu ilə müraciət olunub. Qeyd edək ki, ötən hesabat dövründə 2013-cü ilin birinci yarısına dair məlumatlar istənildikdə dövlət orqanları Milli Fəaliyyət Planında hesabatların yalnız ildə 1 dəfə, özü də ilin yekunlarına dair tərtib olunmasının nəzərdə tutulduğunu əsas gətirərək, məlumatı təqdim etməkdən imtina etmişdilər. Buna görə də bu hesabat dövründə 2013-cü il ərzində AHT üzrə fəaliyyətlərinə dair məlumat, həmçinin 2014-cü il üçün müvafiq iş planı istənilib.

Bundan əlavə, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti və Nəqliyyat Nazirliyinin Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzi Fəaliyyət Planının icrasına qoşulduqları üçün onlar sonradan monitorinq olunan mərkəzi icra hakimiyyəti orqanlarının siyahısına əlavə olunub. Hər iki qurum planın icrası sahəsində görülən işlərə dair məlumatı internet saytlarında yerləşdiriblər. Digər iki qurum - Mərkəzi Bank yanında Maliyyə monitorinqi xidməti və Auditorlar Palatası planın 1 və 2-ci bəndlərində nəzərdə tutulan əsas tədbirləri əvvəlki hesabat dövründə həyata keçirdikləri üçün onlara sorğu göndərilməyib. Fəaliyyət Planının 2.6-cı (dövlət orqanlarının internet səhifələrinin müasir standartlara uyğun olaraq vahid nümunəvi formasının və minimum şərtlərinin müəyyən edilməsi) bəndinin icrasına məsul olan Xüsusi Dövlət Mühafizə Xidməti ötən hesabat dövründə üzərinə düşən tədbiri icra etdiyinə görə bu hesabat dövründə ona da sorğu göndərilməyib.




Beləliklə, ümumilikdə, 20 nazirlik, 11 dövlət komitəsi, 3 dövlət komissiyası, 3 dövlət agentliyi, 2 fond, 1 dövlət xidməti, Mərkəzi Bank, Hesablama Palatası, Nazirlər Kabineti, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) də daxil olmaqla 43 dövlət qurumuna sorğu ilə müraciət olunub. Sorğunun əhatə etmədiyi müddət üzrə fəaliyyətlər qurumların saytlarının monitorinqi yolu ilə qiymətləndirilib[4].

Sorğu göndərilən 43 mərkəzi dövlət orqanından 26-sı, başqa sözlə, 60.5 faizi ona rəsmi cavab göndərib. Bu cavabların 11-də (42.3%) Milli Fəaliyyət Planında hesabatın Korrupsiyaya qarşı Mübarizə üzrə Dövlət Komissiyasına təqdim olunmasının nəzərdə tutulduğu əsas gətirilərək, məlumat verilməsindən imtina

[4] Bax Əlavə 3. Monitorinqə cəlb olunmuş mərkəzi və yerli icra hakimiyyəti orqanlarının siyahısı

olunub. Beləliklə, sorğunu cavablandıran 26 dövlət qurumundan yalnız 15-i (57.7%) sorğuda qoyulan suallara qismən, yaxud bütünlüklə cavab verib. Sorğu göndərilən 43 mərkəzi dövlət orqanından sorğuda qoyulan suallara qismən, yaxud bütünlüklə cavab verənlər isə cəmi 34.9% təşkil edir.

Qiymətləndirmənin icrası zamanı 89 mərkəzi və yerli icra orqanlarına göndərilmiş sorğularla yanaşı, ümumilikdə 94 qurumun internet səhifələri, o cümlədən onlayn mətbuat resursları təhlil olunub, internet axtarış sistemlərinin üstünlüklərindən istifadə olunub.

Fəaliyyət Planının 2.5-ci bəndinin *(Dövlət proqramlarının əhatə etdiyi sahələr üzrə internet portallarının yaradılması İcra: mərkəzi icra hakimiyyəti orqanları – 2012-2014-cü illər)* monitorinqi məqsədilə sorğu cavablarından əlavə, monitorinqə cəlb olunmuş dövlət qurumlarının İnternet saytları da araşdırılıb. Nəticədə, müxtəlif sahələri əhatə edən 40 dövlət və tədbirlər proqramının siyahısı tərtib olunub, onların əhatə etdiyi sahələr üzrə internet portalların yaradılması vəziyyəti öyrənilib. Ötən hesabat dövründən bəri icra müddəti bitən proqramlar siyahıdan çıxarılıb, yeni qəbul olunanlar isə əlavə edilib.

Birinci monitorinq zamanı 9 istiqamət üzrə bütün fəaliyyətlərin monitorinqi aparılsa da, hazırkı, ikinci monitorinq yalnız 1-ci, 2-ci, 4-cü, 5-ci və 8-ci istiqamətləri əhatə edir. Bu dəfəki qiymətləndirmə zamanı Milli Fəaliyyət Planının 53 əsas və sub fəaliyyət istiqamətindən 26-sı monitorinqə cəlb edilib. Monitorinqin nəticəsi olaraq, hər bir istiqamət üzrə orta bal çıxarılıb.

Diaqramdan göründüyü kimi, "İnformasiya əldə edilməsinin asanlaşdırılması" istiqaməti üzrə orta bal 1.40, "Dövlət orqanlarının öz fəaliyyətləri barəsində ictimaiyyətə




müntəzəm məlumat verməsi" üzrə 1.50, "Dövlət orqanlarının fəaliyyətində ictimaiyyətin iştirakının genişləndirilməsi" üzrə 2.00, "Elektron xidmətlərin təkmilləşdirilməsi" üzrə 2.00 və "Mineral ehtiyatların hasilatı ilə məşğul olan sənaye sahələrində şəffaflığın artırılması" üzrə isə 1.66-dır.

Monitorinqə cəlb edilmiş istiqamətlər üzrə ən yüksək bal (2.00) 4-cü ("Dövlət orqanlarının fəaliyyətində ictimaiyyətin iştirakının genişləndirilməsi") və 5-ci istiqamət üzrə ("Elektron xidmətlərin təkmilləşdirilməsi") qeydə alınmışdır. **Ümumilikdə monitorinq edilmiş 26 istiqamət üzrə orta bal isə 1.71 olmuşdur.**

Monitorinqin yekunlarına görə, qiymətləndirməyə cəlb edilmiş ümumi 26 istiqamətdən 9-u üzrə maksimum (34.6%), 10-u üzrə ortadan yüksək (38.5%), 3-ü üzrə orta (11.54%), 2-si üzrə ortadan aşağı (7.69%), 2-si üzrə isə minimum (7.7%) nəticə qeydə alınıb[5].

[5] Bax: Əlavə 3

## İSTİQAMƏTLƏR ÜZRƏ İCRANIN QİYMƏTLƏNDİRİLMƏSİ

### 1-ci istiqamət:
### Informasiya əldə edilməsinin asanlaşdırılması
### ORTA BAL: 1.40

**Görülməli işlər:**

***1.1 Dövlət qurumlarında informasiya azadlığı üzrə məsul şəxslərin müəyyən edilməsi (01), informasiya azadlığı ilə bağlı daxili icraat qaydalarının qəbul edilməsi (02) və bu barədə ictimaiyyətin məlumatlandırılması***

**Məsul dövlət orqanları:** Mərkəzi və yerli icra hakimiyyəti orqanları



**İcra müddəti:** 2012-2014-cü illər

**Ölçmə üçün indikatorlar:**

- İnformasiya işinə məsul şəxsləri təyin etmiş yerli və mərkəzi icra hakimiyyəti orqanlarının sayı (1.1.1 üzrə) və
- İnformasiyaya əlçatanlıq məsələlərinin tənzimlənməsi üzrə daxili icra qaydalarına malik olan yerli və mərkəzi icra hakimiyyəti orqanlarının sayı (1.1.2 üzrə)

***Metodoloji əsas (1.1.1 üzrə):***
*3 - yerli və mərkəzi icra hakimiyyəti orqanlarının 70 faizindən çoxu informasiya işinə məsul şəxsləri təyin edib*
*2 - yerli və mərkəzi icra hakimiyyəti orqanlarının 20 faizindən çoxu, 70 faizindən azı informasiya işinə məsul şəxsləri təyin edib*
*1 - yerli və mərkəzi icra hakimiyyəti orqanlarının 20 faizindən azı informasiya işinə məsul şəxsləri təyin edib*
*0 – planlaşdırılan tədbirlərin reallaşdırılmasını təsdiq edən hallar aşkara çıxarılmayıb*

***Metodoloji əsas (1.1.2 üzrə):***
*3-Yerli və mərkəzi icra hakimiyyəti orqanlarının 70 faizindən çoxu informasiyaya əlçatanlıq məsələlərinin tənzimlənməsi üzrə daxili icra qaydalarına malikdir.*
*2 - Yerli və mərkəzi icra hakimiyyəti orqanlarının 20 faizindən çoxu, 70 faizindən azı informasiyaya əlçatanlıq məsələlərinin tənzimlənməsi üzrə daxili icra qaydalarına malikdir.*
*1 - Yerli və mərkəzi icra hakimiyyəti orqanlarının 20 faizindən azı informasiyaya əlçatanlıq məsələlərinin tənzimlənməsi üzrə daxili icra qaydalarına malikdir.*
*0 – planlaşdırılan tədbirlərin reallaşdırılmasını təsdiq edən hallar aşkara çıxarılmayıb.*

**İcra vəziyyəti**

**1.1.1 üzrə:**
**Monitorinq balı: 2**
*(Yerli və mərkəzi icra hakimiyyəti orqanlarının 20 faizindən çoxu, 70 faizindən azı informasiya işinə məsul şəxsləri təyin edib)*

Bu bənd üzrə monitorinq olunan 92 mərkəzi və yerli icra hakimiyyəti orqanlarından 34-də informasiya azadlığı üzrə məsul şəxs təyin olunub. Bu da, monitorinq olunan mərkəzi və yerli icra hakimiyyətlərinin 31,28 faizi deməkdir.

Ancaq qeyd etmək lazımdır ki, əksər dövlət orqanlarında informasiya azadlığı üzrə məsul şəxs olaraq elə mətbuat katibləri təyin olunub. Az sayda orqanlarda bu iş başqa, adətən, hüquqşünasa həvalə olunub. Dövlət qurumlarının demək olar ki, hamısında mətbuat katiblərinin vəzifə və funksiyalarını müəyyənləşdirən hüquqi normativ sənəd mövcud deyil və ya olsa da, əlçatan deyil. Buna görə də mətbuat katibi ilə informasiya azadlığı üzrə məsul şəxsin vəzifə və yerinə yetirdikləri funksiyalar baxımından fərqini müəyyənləşdirmək mümkün deyil.

**1.1.2. üzrə:**
**Monitorinq balı: 2**
*(Yerli və mərkəzi icra hakimiyyəti orqanlarının 20 faizindən çoxu, 70 faizindən azı informasiyaya əlçatanlıq məsələlərinin tənzimlənməsi üzrə daxili icra qaydalarına malikdir)*

Bu bənd üzrə monitorinq olunan 92 mərkəzi və yerli icra hakimiyyəti orqanlarından 26-da informasiyaya əlçatanlıq məsələlərinin tənzimlənməsi üzrə daxili icraat qaydaları qəbul olunub[6]. Bu isə ümumi sayın 23,9 faizi deməkdir.

---

[6] Bax: Əlavə 5. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində
informasiya azadlığı ilə bağlı daxili icraat Qaydaları. Daxili icraat qaydaları ilə bağlı

***1.2 "İnformasiya azadlığının təmin edilməsi məqsədi ilə məsul dövlət qulluqçuları üçün ətraflı təlimlərin keçirilməsi***

**Məsul dövlət orqanları:** Mərkəzi və yerli icra hakimiyyəti orqanları
**İcra müddəti:** 2012-2014-cü illər

**Ölçmə üçün indikatorlar:** Müvafiq işçi heyəti informasiyaya çıxışın təmin edilməsi mövzusunda təlimlərə cəlb edilmiş mərkəzi və yerli icra hakimiyyəti orqanlarının sayı

***Metodoloji əsas:***
*3 - mərkəzi və yerli icra hakimiyyəti orqanlarının 70 faizindən çoxunda müvafiq işçi heyəti informasiyaya çıxışın təmin edilməsi mövzusunda təlimlərə cəlb edilmişdir.*
*2 - mərkəzi və yerli icra hakimiyyəti orqanlarının 20 fazindən çoxunun, 70 faizindən azının müvafiq işçi heyəti informasiyaya çıxışın təmin edilməsi mövzusunda təlimlərə cəlb edilmişdir.*
*1 - mərkəzi və yerli icra hakimiyyəti orqanlarının 20 faizindən azının işçi heyəti informasiyaya çıxışın təmin edilməsi mövzusunda təlimlərə cəlb edilmişdir.*
*0 – planlaşdırılan tədbirlərin reallaşdırılmasını təsdiq edən hallar aşkara çıxarılmayıb.*

**İcra vəziyyəti**
**Monitorinq balı: 2**

---

nümunələrlə elektron formada bu linklərdə tanış olmaq mümkündür: **http://www.sspf.gov.az/view.php?lang=az&menu=380&id=1337, http://www.stat.gov.az/menu/2/freedom_info/freedom_info.pdf, http://www.csc.gov.az/index.php/home/post/1487, http://www.migration.gov.az/images/pdf/cd6f8da4c63bdc042950657538677038.pdf**

*(Mərkəzi və yerli icra hakimiyyəti orqanlarının 20 fazindən çoxunun, 70 faizından azının müvafiq işçi heyəti informasiyaya çıxışın təmin edilməsi mövzusunda təlimlərə cəlb edilmişdir)*

*Monitorinq olunan 92 mərkəzi və yerli icra hakimiyyəti orqanından 24-də informasiya azadlığının təmin edilməsi məqsədi ilə məsul dövlət qulluqçuları üçün ətraflı təlimlər keçirilib*[7]*. Bu faiz ifadəsində 22,08 faiz xüsusi çəki deməkdir.*

### 1.3 *"İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinin icrasına nəzarətin həyata keçirilməsi məqsədi ilə Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Aparatının strukturunun təkmilləşdirilməsi (1.3.1), aidiyyatı əməkdaşların ixtisaslaşmış təlimlərə cəlb edilməsi (1.3.2)*

**Məsul dövlət orqanı:** İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman)
**İcra müddəti:** 2013-2014-cü illər

**Ölçmə üçün indikatorlar:**

- Azərbaycan Respublikası Ombudsmanının strukturlarının təkmilləşdirilməsi vəziyyəti (13.1)
- və aidiyyəti əməkdaşların ixtisaslaşmış təlimlərə cəlb edilməsi vəziyyəti (1.3.2)

***Metodoloji əsas*** *(1.3.1 üzrə):*
*3 - Azərbaycan Respublikası Ombudsmanının strukturları təkmilləşdirilmişdir.*
*1 – Azərbaycan Respublikası Ombudsmanının strukturlarının*

---

[7] Sorğularımıza verilən cavablarda və təlimi keçməyə məsul dövlət qurumlarının İnternet resurslarında təlimin kimlərə keçilməsi, onların məzmunu, gündəliyi və gələcəkdə belə təlimlərin kimlərə və nə zaman keçirilməsi ilə bağlı detallı məlumatlar açıqlanmır.

*təkmilləşdirilməsinə hazırlıq işləri gedir.*
*0-planlaşdırılan tədbirlərin reallaşdırılmasını təsdiq edən hallar aşkara çıxarılmayıb.*

***Metodoloji əsas*** *(1.3.2 üzrə):*
3 – *Azərbaycan Respublikası Ombudsmanının səlahiyyətli əməkdaşlarının 70 faizindən çoxu xüsusiləşdirilmiş təlimlərə cəlb olunmuşdur.*
*2- Azərbaycan Respublikası Ombudsmanının səlahiyyətli əməkdaşlarının 20 faizindən çoxu, 70 faizindən azı xüsusiləşdirilmiş təlimlərə cəlb olunmuşdur.*
1 – *Azərbaycan Respublikası Ombudsmanının səlahiyyətli əməkdaşlarının 20 faizindən azı xüsusiləşdirilmiş təlimlərə cəlb olunmuşdur.*
0 – *planlaşdırılan tədbirlərin reallaşdırılmasını təsdiq edən hallar aşkara çıxarılmayıb.*

**İcra vəziyyəti**
**1.3.1 üzrə:**
**Monitorinq balı: 1**
*(Azərbaycan Respublikası Ombudsmanının strukturlarının təkmilləşdirilməsinə hazırlıq işləri gedir)*

İnsan Hüquqları üzrə Müvəkkilə (Ombudsmana) göndərilən sorğuya verilən cavabdan aydın olur ki, əvvəlki hesabat dövründən bəri vəziyyət dəyişməyib. Belə ki, Ombudsmanın 2012-ci il üzrə illik hesabatında qeyd olunur: "Müvəkkil tərəfindən aparatın strukturunda yaradılması nəzərdə tutulmuş "İnformasiya təminatı məsələləri şöbəsi"nin vəzifələrinin, strukturunun və ştat cədvəlinin layihəsi hazırlanmış, ştat sayının təsdiq edilməsi məqsədilə Nazirlər Kabinetinə ünvanladığı müraciətlər müsbət dəyərləndirilmiş, məsələnin 2012-

ci ildə həlli və maliyyələşdirilməsi məqsədilə Maliyyə Nazirliyinə tapşırıq verilmiş, lakin hələ də öz həllini tapmamışdır.

Ştat vahidlərinin və maddi-texniki resursların ayrılmamasının nəticəsidir ki, təsisat informasiya təminatı hüququnun təmin edilməsi üzrə fəaliyyətini zəruri səviyyədə qura bilməmiş və məhz bu səbəbdən də davamlı olaraq tənqidlərə məruz qalmaqdadır. Məlumat üçün qeyd edilməlidir ki, Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli, 2421 saylı Sərəncamı ilə təsdiq edilmiş "Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın 1.3-cü bəndində «İnformasiya əldə etmək haqqında» Azərbaycan Respublikası Qanununun tələblərinin icrasına nəzarətin həyata keçirilməsi məqsədi ilə Müvəkkil aparatının strukturunun təkmilləşməsi nəzərdə tutulmuşdur." Bu il göndərilən cavabda qeyd olunur ki, qeyd edilən ştat vahidləri ilə bağlı Ombudsmanın təklifinə dair hər hansı qərar qəbul edilməyib.

**1.3.2 üzrə:**
**Monitorinq balı: 0**

*(Planlaşdırılan tədbirlərin reallaşdırılmasını təsdiq edən hallar aşkara çıxarılmayıb)*

Ombudsman aparatında müvafiq şöbənin ştat vahidləri və maddi-texniki resurslar ayrılmasa da, Ombudsman aparatının məsul şəxslərinə informasiya azadlığı ilə bağlı təlimlər təşkil olunub[8]. Lakin bu zaman yenə də, müvafiq şöbənin ştat vahidlərinin sayı müəyyən olunmadığı üçün hansı nisbətdə əməkdaşın təlimə cəlb olunduğunu müəyyənləşdirmək mümkün

---

[8] Təəssüf ki, Ombudsman aparatından sorğumuza verilən cavabda və qurumun İnternet resursunda da təlimin kimlərə keçilməsi, onların məzmunu, gündəliyi və gələcəkdə belə təlimlərin kimlərə və nə zaman keçirilməsi ilə bağlı detallı məlumatlar açıqlanmır. Bu baxımdan, onlar əlçatan deyil.

olmayıb. Ona görə də bu bənd üzrə nəticə 0 balla qiymətləndirilib.

**2-ci istiqamət:**
**<u>Dövlət orqanlarının öz fəaliyyətləri barəsində ictimaiyyətə müntəzəm məlumat verməsi</u>**
**ORTA BAL: 1.5**

***2.1 Dövlət orqanlarının öz fəaliyyətləri barəsində məlumatları mütəmadi, yenilənmiş əsaslarla internet səhifələrində yerləşdirməsi***

**Məsul dövlət orqanları:** Mərkəzi və yerli icra hakimiyyəti orqanları
**İcra müddəti:** Mütəmadi

**Ölçmə üçün indikatorlar:** Fəaliyyətləri barəsində informasiyaları müntəzəm olaraq saytda yerləşdirən dövlət orqanlarının sayı

***Metodoloji əsas:***
*3 – Mərkəzi və yerli icra orqanlarının 70 faizindən çoxu öz fəaliyyətləri barəsində informasiyaları müntəzəm olaraq saytda yerləşdirir.*
*2 – Mərkəzi və yerli icra orqanlarının 20 faizindən çoxu, 70 faizindən azı öz fəaliyyətləri barəsində informasiyaları müntəzəm olaraq saytda yerləşdirir.*
*1 – Mərkəzi və yerli icra orqanlarının ən azı 20 faizinə qədəri öz fəaliyyətləri barəsində informasiyaları müntəzəm olaraq saytda yerləşdirir.*
*0 – Mərkəzi və yerli icra orqanlarının heç biri öz fəaliyyətləri barəsində informasiyaları müntəzəm olaraq saytda yerləşdirmir.*

**İcra vəziyyəti**

**Monitorinq balı: 2**
*(Mərkəzi və yerli icra orqanlarının 20 faizindən çoxu, 70 faizindən azı öz fəaliyyətləri barəsində informasiyaları müntəzəm olaraq saytda yerləşdirir)*

Monitorinqə cəlb olunmuş mərkəzi və yerli icra hakimiyyəti orqanlarının sayı çox, informasiyanın açıqlanmasına münasibətdə mövqeləri fərqli olduğu kimi, qurumlar arasında informasiya bərabərsizliyi də dərindir. Odur ki, bu qurumları ümumi olaraq xarakterizə etmək, ölçmək müəyyən çətinlik yaradır. Mərkəzi icra hakimiyyəti orqanlarında icraatın vəziyyəti yerli icra hakimiyyəti orqanlarının durumu ilə müqayisədə xeyli irəlidədir və özündə müsbət amilləri ehtiva edir.

Monitorinq dövründə 48 mərkəzi icra hakimiyyəti orqanları və onlara bərabər tutulan qurumların və 46 yerli icra hakimiyyəti orqanının fəaliyyətləri qiymətləndirilib. Qiymətləndirmə zamanı qurumlara göndərilən sorğuların cavabları nəzərə alınıb həmin qurumların rəsmi internet səhifələri nəzərdən keçirilib, o cümlədən axtarış sistemləri vasitəsi ilə həmin qurumlar üzrə sosial və internet mediasının məlumatları dəyərləndirilib.

İnformasiya sahibi olan bu qurumların sorğulara cavabları və informasiya açıqlığına reaksiyaları ciddi şəkildə fərqlənir. Həm mərkəzi, həm də yerli icra hakimiyyəti orqanları arasında şəffaflığa önəm verən, sorğulara əhatəli və qanuna müvafiq reaksiya verənlərlə (Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, Təhsil Nazirliyi, Tələbə Qəbulu üzrə Dövlət Komissiyası, Dövlət Statistika Komitəsi, Qiymətli Kağızlar üzrə Dövlət komitəsi, Vergilər Nazirliyi, Binəqədi Rayon İcra Hakimiyyəti, İsmayıllı Rayon İcra Hakimiyyəti və sair) yanaşı, informasiyanı verməkdə maraqlı olmayan, qapalı qurumlara da

(Güc nazirlikləri, Dövlət Sosial Müdafiə Fondu, Diasporla İş üzrə Dövlət Komitəsi, Satınalmalar üzrə Dövlət Agentliyi, Gömrük Komitəsi və sair və əksər yerli icra hakimiyyətləri) rast gəlinib.

Öz fəaliyyətləri barəsində informasiyaları internet vasitəsi ilə mütəmadi açıqlayan qurumlar içərisində xüsusi olaraq 2 qurumu qeyd etmək yerinə düşər. Azərbaycan Respublikasının Təhsil Nazirliyi müxtəlif fəaliyyətlərini əlaqələndirmək və tanıtmaq məqsədi ilə www.edu.gov.az, www.portal.edu.az, http://mektebli.president.az/, http://www.nostrifikasiya.edu.az , http://xaricdetehsil.edu.gov.az/ saytlarını yaradıb. Azərbaycan Respublikasının Vergilər Nazirliyinin www. taxes.gov.az və www.e- taxes.gov.az saytları da geniş informativ fəaliyyət göstərir. İnformasiyanın saytda açıqlanması sarıdan fəaliyyəti mənfi qiymətləndirilən qurum kimi İnsan Hüquqları Ombudsmanını (www. ombudsman.gov.az ) göstərmək olar.

Bir sözlə, monitorinqin nəticələri sübut edib ki, ən açıq və ən qapalı qurum arasında məsafə həddindən artıq genişdir. Bəzi mərkəzi icra hakimiyyəti orqanları hər gün bir neçə informasiya yaymaqla, öz fəaliyyətləri haqqında məlumatları sosial şəbəkədə paylaşmaqla, press-relizlər vasitəsilə, görüntülü və yazılı informasiyalar paylaşmaqla informasiyanın daha geniş dairədə yayılmasında maraqlı olduqlarını əməli şəkildə göstəriblər.

Mövcud qanunvericilik "İnformasiya əldə etmə haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə əməl etməyən informasiya sahibləri üçün inzibati məsuliyyət müəyyənləşdirir. İnzibati Xətalar Məcəlləsinə 20 oktyabr 2006-cı il tarixli 167-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ilə 181-3-cü maddə əlavə edilmişdir. Həmin maddə ilə;

1. İnformasiya sahibi tərəfindən açıq informasiyanı əldə etmək

hüququnun məhdudlaşdırılması və ya sorğuçuya bilərəkdən yanlış informasiya verilməsinə görə;
2. İnformasiya sahibi tərəfindən informasiyanın əldə olunmasının təşkil edilməməsinə görə;
3. İnformasiyanın əldə edilməsi haqqında yazılı sorğunun qəbul edilməsindən imtina olunmasına görə;
4. İnformasiya sahibi tərəfindən malik olduğu sənədlərin qanunvericiliklə müəyyən olunmuş saxlanma, komplektləşdirilmə və mühafizə qaydalarının pozulmasına görə;
5. İctimaiyyətdə maraq doğuran hüquq pozuntuları barəsində məlumatı açıqladığı üçün vəzifəli şəxsin təqib olunmasına görə; -
- fiziki şəxslər iyirmi manatdan iyirmi beş manatadək miqdarda, vəzifəli şəxslər səksən manatdan doxsan manatadək miqdarda, hüquqi şəxslər iki yüz əlli manatdan üç yüz manatadək miqdarda inzibati qaydada cərimə edilirlər[9].

Yerli icra hakimiyyəti orqanlarında bu baxımdan durum daha problemlidir. Belə ki, 2012-ci ildə bütün yerli icra hakimiyyəti orqanlarına internet səhifəsi yaradılsa da, onların bir çoxu informasiyanı yeniləməkdə maraqlı görünmürlər. Kiçik istisnaları nəzərə almasaq, heç bir yerli icra hakimiyyəti orqanının rəsmi internet səhifəsində elektron xidmətlər aktiv deyil. Xarakterik hal kimi onu qeyd etmək olar ki, yenilənən saytların xəbərlər bölümündə ay ərzində bir neçə informasiya yerləşdirilir. Bunlar isə icra hakimiyyətinin hüquqi fəaliyyətinə həsr olunan məlumatlar deyil, rayon və ya şəhər ərazisində keçirilən kütləvi tədbirlərdən, yaradıcılıq gecələrindən, hansısa mərkəzi icra hakimiyyəti orqanının rəhbərinin rayon sakinləri ilə görüşündən bəhs edir. Paylaşılan məlumatlar istifadəçilərin faydalanmasından çox, qurumun PR-na hesablanmış xəbər görüntüsü yaradır. Vətəndaşların qəbuluna, sosial-iqtisadi problemlərin həlli

[9] Mənbə: http://e-qanun.az/code/13

yollarına və fəaliyyət sferalarına dair informasiyalara nadir hallarda rast gəlinir.

Yerli icra hakimiyyətinin hüquqi əsasını təşkil edən Azərbaycan Respublikası Prezidentinin 6 iyun 2012-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş "Yerli İcra Hakimiyyəti haqqında Əsasnamə"də ümumi vəzifələr də daxil olmaqla, bu strukturlara ərazilərin sosial-iqtisadi inkişafı, aqrar, büdcə, istehlak, sosial müdafiə, əmək münasibətləti, şəhər və mənzil kommunal təsərrüfatları, ətraf mühit, təmir-tikinti, memarlıq, təhsil və mədəniyyət, uşaq, gənclər və bədən tərbiyyəsi, idman, turizm, kütləvi informasiyalar vasitəsi, qanunçuluq, asayiş və təhlükəsizlik, dövlət əmlakının idarə olunması, sağlamlıq və sair sahələr üzrə təxminən 100-dək vəzifə verilib. Bununla yanaşı, səlahiyyətlər daha da genişləndirilərək onların sayı yuxarıda qeyd edilən sahələr üzrə 180-dən artıq göstərilib.

Təəssüf ki, yerli icra hakimiyyətlərinin heç birinin internet səhifəsində bu sahələr üzrə fəaliyyəti göstərən başlıqlar və məlumatlar nəzərə çarpmır. Xüsusilə, büdcəyə və onun xərclənməsinə dair informasiyalar çox məhdud şəkildə paylaşılır.

Mərkəzi və yerli icra hakimiyyəti orqanlarının fəaliyyətlərinin ciddi bir hissəsini normativ xarakterli aktların qəbul edilməsi tutur. Lakin, saytlarda ümumi qanunvericiliyin bəzi məqamları olsa da, konkret yerli icra hakimiyyəti orqanlarının normativ xarakterli aktları-qərarları yer almır. Halbuki, Əsasnamənin 6.4-cü bəndinə görə, "Yerli icra hakimiyyəti orqanlarının qəbul etdikləri normativ xarakterli aktların icrası onun ərazisində yaşayan fiziki şəxslər və onun ərazisində yerləşən hüquqi şəxslər üçün məcburidir".

## *2.2 Dövlət orqanlarının öz fəaliyyətləri barəsində illik məruzələr tərtib etməsi və internet səhifələrində açıqlaması*

**Məsul dövlət orqanları:** Mərkəzi və yerli icra hakimiyyəti orqanları
**İcra müddəti:** 2012-2015-ci illər

**Ölçmək üçün indikatorlar:** Fəaliyyətləri barəsində hesabatları müntəzəm olaraq dərc edən mərkəzi və yerli hökumət orqanlarının sayı

***Metodoloji əsas:***
*3 – Mərkəzi və yerli hökumət orqanlarının 70 faizindən çoxu fəaliyyətləri barəsində hesabatları rəsmi saytlarında yerləşdirib.*
*2 – Mərkəzi və yerli hökumət orqanlarının 20 faizindən, 70 faizinə qədəri fəaliyyətləri barəsində hesabatları rəsmi saytlarında yerləşdirib.*
*1 – Mərkəzi və yerli hökumət orqanlarının 20 faizindən azı fəaliyyətləri barəsində hesabatları rəsmi saytlarında yerləşdirib.*
*0 – Hec bir mərkəzi və yerli hökumət orqanları fəaliyyətləri barəsində hesabatları rəsmi saytlarında yerləşdirmir.*

**İcra vəziyyəti**
**Monitorinq balı: 2**
*(Mərkəzi və yerli icra orqanlarının 20 faizindən 70 faizinə qədəri fəaliyyətləri barəsində hesabatları rəsmi saytlarında yerləşdirib)*

Qiymətləndirmə metodologiyasına uyğun olaraq bütün mərkəzi və yerli icra hakimiyyəti orqanlarının saytlarında həmin orqanların öz fəaliyyətlərinə dair yerləşdirilmiş informasiyaların təhlili əsasında aparılmışdır.

Mərkəzi icra hakimiyyəti orqanlarının saytlarındakı məlumatların təhlili göstərir ki, bu orqanlardan yalnız Gömrük

Komitəsinin, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, və Əmlak Məsələləri Dövlət Komitəsinin saytlarında öz fəaliyyətlərinə dair geniş hesabatlar yerləşdirilib. Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, Sosial Müdafiə Fondu, Torpaq və Xəritəçəkmə Komitəsi, Daxili İşlər Nazirliyi və Statistika Komitəsinin saytlarında isə, geniş olmasa da ümumi illik hesabatlar var. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin saytında isə illik hesabatla bağlı link olsa da, burada heç bir məlumat yerləşdirilməyib. Digər mərkəzi icra hakimiyyəti orqanlarının saytlarında isə, onların illik fəaliyyətinə dair heç bir məlumat müəyyən edilməyib. Ümumilikdə, hesabatlarda bu qurumlara büdcədən ayrılan vəsaitlərin istifadəsi ilə bağlı ətraflı məlumat verilmir.

Yerli icra hakimiyyəti orqanlarının saytlarındakı məlumatların təhlilindən isə belə nəticəyə gəlinib ki, yalnız Binəqədi Rayon İcra Hakimiyyətinin saytı istisna və Bakı Şəhər İcra Hakimiyyətinin saytı daxil olmaqla, heç bir YİH orqanının saytında onların illik fəaliyyətlərinə dair hesabatlar yerləşdirilməyib. Binəqədi Rayon İH-nin saytında isə, ümumilikdə xeyli məlumat, habelə İH-nin fəaliyyəti ilə bağlı geniş hesabat var.

Lakin bunlarla yanaşı, həm mərkəzi, həm də yerli icra hakimiyyəti orqanlarının saytlarında həyata keçirilən müəyyən fəaliyyətlər, o cümlədən mərkəzi və yerli icra hakimiyyəti rəhbərlərinin görüşləri barəsində bir sıra məlumatlara rast gəlmək mümkündür. Qiymətləndirmə aparılarkən bu hal nəzərə alınıb.

Bir vacib məqamı qeyd edək ki, dövlət orqanlarının öz fəaliyyətləri barəsində illik məruzələr tərtib etməsi və internet səhifələrində açıqlamasının qiymətləndirmə metodologiyası kimi yalnız saytlardakı məlumatların təhlili nəzərdə tutulsa da,

monitorinq zamanı müvafiq dövlət orqanlarına göndərilmiş sorğulara cavablardakı məlumatlar da öyrənilib. Sorğulara cavablarda əksər mərkəzi və yerli icra hakimiyyəti orqanları öz fəaliyyətləri barəsində illk hesabatlar hazırladıqlarını bildiriblər. Lakin belə hesabatlara daha çox mərkəzi icra hakimiyyəti orqanlarının saytlarında rast gəlinib. İllik hesabatları saytlarında yerləşdirməmiş mərkəzi icra hakimiyyəti orqanları və demək olar ki, bütün yerli icra hakimiyyəti orqanları hesabatları sorğulara cavablara əlavə etməyiblər.

Qeyd edək ki, bütün YİH orqanlarının saytları standartdır və buradakı məlumatlar daha çox ümumi və statistik xarakter daşıyır.

### *2.3 Dövlət orqanlarının öz fəaliyyətləri barəsində mətbuat konfransları və ictimaiyyətlə birbaşa ünsiyyət formasında tədbirlər keçirməsi*

**Məsul dövlət orqanları:** Mərkəzi və yerli icra hakimiyyəti orqanları
**İcra müddəti:** 2012-2015-ci illər

**Ölçmək üçün indikatorlar:** Fəaliyyəti dövründə heç olmasa, ildə bir dəfə olaraq mətbuat konfransı keçirir və ya digər formada əhali ilə birbaşa ünsiyyətdə olan mərkəzi və yerli hökumət orqanlarının sayı.

***Metodoloji əsas:***
*3 – Mərkəzi və yerli hökumət orqanlarının 70 faizindən çoxu ildə ən azı bir dəfə olaraq mətbuat konfransı keçirir və ya digər formada əhali ilə birbaşa ünsiyyətdə olur*

*2 – Mərkəzi və yerli hökumət orqanlarının 20 faizindən 70 faizinə qədəri ildə ən azı bir dəfə olaraq mətbuat konfransı keçirir və ya digər formada əhali ilə birbaşa ünsiyyətdə olur*
*1 – Mərkəzi və yerli hökumət orqanlarının 20 faizindən azı ildə ən azı bir dəfə olaraq mətbuat konfransı keçirir və ya digər formada əhali ilə birbaşa ünsiyyətdə olur*
*0 – Heç bir mərkəzi və yerli hökumət orqanı mətbuat konfransı keçirir və ya digər formada əhali ilə birbaşa ünsiyyətdə olmur.*

**İcra vəziyyəti**
**Monitorinq balı: 3**
*(Mərkəzi və yerli hökumət orqanlarının 70 faizindən çoxu ildə ən azı bir dəfə mətbuat konfransı keçirir və ya digər formada əhali ilə birbaşa ünsiyyətdə olur)*

Monitorinqlər göstərib ki, mərkəzi və yerli icra hakimiyyəti orqanlarının böyük əksəriyyəti ildə bir dəfə hesabat yığıncağı keçirib və bu barədə məlumat yayıb. Araşdırma nəticəsində məlum olub ki, qiymətləndirməyə alınan 46 yerli icra hakimiyyəti orqanının 34-də (74%) belə toplantılar ən azı il ərzində bir dəfə keçirilib. Təssüf ki, bu hesabatların mətnini heç bir yerli icra hakimiyyəti orqanının saytında tapmaq mümkün deyil. Sadəcə, belə hesabatların verilməsi ilə bağlı mediada xəbərlər dərc olunub. Amma həmin hesabatlarda yerli icra hakimiyyəti orqanlarına tanınan 180 səlahiyyət və 100 vəzifənin[10] icrasına dair dəqiq informasiyaların olub-olmamasını müəyyənləşdirmək mümkün olmayıb. Çünki, hesabat mətnləri əlçatan deyil və bu aspektdən şəffaflıq təmin edilməyib.

Mərkəzi icra hakimiyyəti orqanlarında bu baxımdan durum daha yaxşıdır. Bütün qurumlar azı bir dəfə belə hesabat-toplantısı

---

[10] Azərbaycan Respublikası Prezidentinin 6 iyun 2012-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş “Yerli İcra Hakimiyyəti haqqında Əsasnamə”

keçirib və bu barədə məlumat yayıb. Əlbəttə, bəzi qurumlar bu hesabatı öz internet səhifələrində yerləşdirərək, şəffaflığı tam təmin etsə də, bəziləri hesabatların əlçatanlığını təmin etməyib.

Əsas qeydlərdən biri ondan ibarətdir ki, heç bir yerli icra hakimiyyəti orqanının rəsmi internet səhifəsində "Hesabatlar" bölməsi yoxdur və saytlarda hesabatlar nə ümumi, nə də sahəvi olaraq yer alıb. Bu hesabatlar bir çox hallarda ilin sonunda YAP rayon təşkilatı ilə birlikdə keçirilən illik toplantıda verilib. Mərkəzi icra hakimiyyəti orqanlarının heç də hamısının saytında hesabatlar ayrıca bölməyə yerləşdirilməyib. Yaxşı olardı ki, hesabatlar şəffaflığı təmin etmək məqsədilə saytda, xüsusi bölmədə müxtəlif formatlarda (doc, pdf və s.) yerləşdirilsin və ana səhifədə tez gözə çarpsın.

**2.4** ***Dövlət orqanlarının fəaliyyətini tənzimləyən qanunvericilik aktlarının anlaşılan, sadə dildə yazılmış versiyasının, bələdçi qaydalarının tərtib edilməsi və bu məlumatların vətəndaşlar arasında təşviq edilməsi***

**2.4.1. Dövlət orqanlarının fəaliyyətini tənzimləyən qanunverici aktların sadə və anlaşıqlı formada rəhbər prinsipləri versiyasının hazırlanması**

**Məsul dövlət orqanları:** Mərkəzi və yerli icra hakimiyyəti orqanları
**İcra müddəti:** Mütəmadi

**Ölçmək üçün indikatorlar:** Dövlət orqanlarının fəaliyyətlərini tənzimləyən qanunverici aktların sadə və anlaşıqlı formada rəhbər prinsipləri versiyasının hazırlanması
***Metodoloji əsas:***
*2 – rəhbər prinsiplər sadə və anlaşıqlı formada hazırlanmışdır*

*1 – rəhbər prinsiplərin işlənilməsi ilə bağlı fəaliyyətlər aparılsa da onun qəbul olunması ləngiyir*
*0 – planlaşdırılan tədbirlərin reallaşdırılmasını təsdiq edən hallar aşkara çıxarılmayıb*

**İcra vəziyyəti**
**Monitorinq balı: 1**
*(Rəhbər prinsiplərin işlənilməsi ilə bağlı fəaliyyətlər aparılsa da, onun qəbul olunması ləngiyir)*

Qiymətləndirmə metodologiyası dövlət orqanlarının fəaliyyətini tənzimləyən qanunverici aktların sadə və anlaşıqlı formada rəhbər prinsipləri versiyasının hazırlanmasının sorğular vasitəsi ilə müəyyənləşdirilməsini nəzərdə tutur. Monitorinq zamanı müvafiq dövlət orqanlarına göndərilmiş sorğulara verilən cavablarda əksər dövlət orqanları fəaliyyətini tənzimləyən qanunverici aktların sadə və anlaşıqlı formada versiyalarının hazırladıqlarını bildiriblər.

Lakin, çox az dövlət orqanlarının saytlarında bu cür informasiyalar yerləşdirilib. Bu isə, belə nəticəyə gəlməyə imkan verir ki, dövlət orqanlarının fəaliyyətini tənzimləyən qanunverici aktların sadə və anlaşıqlı formada rəhbər prinsiplərin işlənilməsi ilə bağlı fəaliyyətlər aparılsa da, onun qəbul olunması ləngiyir.

**2.4.2. Mərkəzi və yerli icra hakimiyyəti orqanları onların fəaliyyətlərini tənzimləyən qanunverici aktları sadə və anlaşıqlı dildə tərtib və dərc etmişdir.**

**Məsul dövlət orqanları:** Mərkəzi və yerli icra hakimiyyəti orqanları
**İcra müddəti:** Mütəmadi

**Ölçmək üçün indikatorlar:** Mərkəzi və yerli icra hakimiyyəti orqanları onların fəaliyyətlərini tənzimləyən qanunverici aktları sadə və anlaşıqlı dildə tərtib və dərc etmişdir.

***Metodoloji əsas:***
*3 – Mərkəzi və yerli icra hakimiyyəti orqanlarının 70 faizindən çoxu onların fəaliyyətlərini tənzimləyən qanunverici aktları sadə və anlaşıqlı dildə tərtib və dərc etmişdir.*
*2 – Mərkəzi və yerli icra hakimiyyəti orqanlarının 20 faizindən 70 faizə qədəri onların fəaliyyətlərini tənzimləyən qanunverici aktları sadə və anlaşıqlı dildə tərtib və dərc etmişdir.*
*1-Mərkəzi və yerli icra hakimiyyəti orqanlarının 20 faizindən azı onların fəaliyyətlərini tənzimləyən qanunverici aktları sadə və anlaşıqlı dildə tərtib və dərc etmişdir.*
*0-Mərkəzi və yerli icra hakimiyyəti orqanlarının heç biri onların fəaliyyətlərini tənzimləyən qanunverici aktları sadə və anlaşıqlı dildə dərc etmir.*

**İcra vəziyyəti**
**Monitorinq balı: 1**
**(***Mərkəzi və yerli icra hakimiyyəti orqanlarının 20 faizindən azı onların fəaliyyətlərini tənzimləyən qanunverici aktları sadə və anlaşıqlı dildə tərtib və dərc etmişdir***)**

Monitorinqin metodologiyası mərkəzi və yerli icra hakimiyyəti orqanları onların fəaliyyətlərini tənzimləyən qanunverici aktları sadə və anlaşıqlı dildə tərtib və dərc edilməsini ölçməyin vasitəsi kimi sorğuları nəzərdə tutur. Müvafiq dövlət orqanları tərəfindən bu məsələ barəsində sorğulara verilən əksər cavablarda onların fəaliyyətini tənzimləyən qanunverici aktları sadə və anlaşıqlı dildə tərtib və dərc etdiklərini bildiriblər[11].

[11] Nümunələr: Vergilər Nazirliyi: http://taxes.gov.az/modul.php?name=e-xidmetler, http://taxes.gov.az/modul.php?lang=&name=birpencere&bolme=legal,

Lakin mərkəzi və yerli icra hakimiyyəti orqanlarının rəsmi saytlarında onların fəaliyyətini tənzimləyən qanunvericilik aktlarının sadə və anlaşıqlı dildə tərtib olunmuş variantlarına rast gəlinməyib. Mərkəzi icra hakimiyyəti orqanlarının 20%-ə qədərində onların fəaliyyəti ilə bağlı müraciətlərə dair sənəd formaları[12] və nümunələri, izahlar və s. kimi sənədlər qoyulub. Müvafiq normativ hüquqi aktlar əsasında hazırlanmış bu sənədləri və izahları dolayısı ilə onların fəaliyyətini tənzimləyən qanunvericilik aktlarının sadə və anlaşıqlı dildə tərtib olunması kimi qiymətləndirmək olar.

Yerli icra hakimiyyəti orqanlarından yalnız Binəqədi İcra Hakimiyyətinin saytında bu cür materiallar yerləşdirlib. Digər YİH orqanlarının saytında isə, belə materiallar demək olar ki, yoxdur.

Qeyd edək ki, mərkəzi icra hakimiyyəti orqanlarından Vergilər Nazirliyinin və Gömrük Komitəsinin saytlarında bu tip sənəd nümunələri, formalar, izahlar və digər materiallar daha əhatəlidir, Daxili İşlər, Xarici İşlər, Fövqəladə Hallar və Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin, eyni zamanda, Dövlət

---

http://taxes.gov.az/encox/suallar.html, http://taxes.gov.az/modul.php?name=e-xidmetler&cat=3; Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi: http://www.mlspp.gov.az/az/pages/19/52, http://www.mlspp.gov.az/az/pages/6/33, http://www.mlspp.gov.az/az/pages/6/36; İqtisadiyyat və Sənaye Nazirliyi: http://www.economy.gov.az/index.php?option=com_vitabook&view=vitabook&Itemid=273&lang=az

12 Belə sənəd formaları ilə bağlı nümunələr: Vergilər Nazirliyi: http://taxes.gov.az/modul.php?name=birpencere&lang=&bolme=legal&bolme2=erize, http://taxes.gov.az/modul.php?name=birpencere&lang=&bolme=legal&bolme2=nizamla; Təhsil Nazirliyi: http://xaricdetehsil.edu.gov.az/uploads/Elektron_erizenin_doldurulmasina_dair_telimat.pdf

Sosial Müdafiə Fondunun və Tələbə Qəbulu üzrə Dövlət Komitəsinin saytlarındakı materialları isə orta qiymətləndirmək olar.

### *2.5 Dövlət proqramlarının əhatə etdiyi sahələr üzrə internet portallarının yaradılması*

**Məsul dövlət orqanları:** Mərkəzi icra hakimiyyəti orqanları
**İcra müddəti:** 2012-2014-cü illər

**Ölçmək üçün indikatorlar:** Dövlət proqramlarınının bütün sferalarını əhatə edən yaradılmış internet portalların sayı

***Metodoloji əsas:***
*3 - Dövlət proqramlarınının yarısından çox sferalarını əhatə edən internet-portallar yaradılmışdır.*
*2 – İnternet portallar yaradılmasa da, bu sahədə hazırlıq işlərinin görülməsini əhatə edən arqumentlər vardır.*
*0 – Planlaşdırılan tədbirlərin reallaşdırılmasını təsdiq edən hallar aşkara çıxarılmayıb.*

**İcra vəziyyəti**
**Monitorinq balı: 2**
*(İnternet portallar yaradılmasa da, bu sahədə hazırlıq işlərinin görülməsini əhatə edən arqumentlər vardır)*

Monitorinqin əhatə dairəsinə xeyli sahədə dövlət proqramları, milli fəaliyyət proqramları və tədbirlər planı daxil edilib və onların bəziləri 2013-cü ilin sonunda başa çatıb. Monitorinqə cəlb etdiyimiz 48 mərkəzi icra hakimiyyəti orqanının böyük əksəriyyəti bu sektorda yeni portal yaratmayıb, mövcud internet səhifələrində sadəcə "Dövlət Proqramları" bölməsi əlavə ediblər. Həmin bölmədə sadəcə proqramın özü yer alıb, lakin proqramın icra vəziyyətinə dair informasiyalara rast gəlinməyib.

Bəzi dövlət qurumları isə konkret dövlət proqramlarının icrasını nəzərdə tutan məlumatları özündə cəmləyən portal yaradıb. Məsələn, Təhsil Nazirliyi dövlət hesabına xaricdə təhsilə dair Dövlət Proqramının icrası ilə bağlı http://www.xaricdetehsil.edu.gov.az portalını yaradıb və portal işlək vəziyyətdədir. Bir digər portal www.mesafedenmekteb.edu.az portalıdır və tədrisə dəstək üçün yaradılıb. http://www.e-derslik.edu.az portal isə elektron dərsliklərin yerləşdirilməsini nəzərdə tutur. Lakin hələ başlanğıc mərhələsindədir.

Rabitə və Yüksək Texnologiyalar Nazirliyi "Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramı" çərçivəsində www.azerkosmos.az saytı yaradıb. Elektron Hökumət proqramı da bu sahədə uğurlu layihələrdən biridir və www.e-gov.az saytı bu məqsədlə yaradılmış və fəaliyyətini davam etdirir.

Monitorinqin əhatə etdiyi 48 dövlət qurumunun sorğu göndərilən 43-dən sadəcə, 2-si bu istiqamətdə yaratdıqları portala dair məlumat vermiş, bir qurum isə bununla bağlı işlərin getdiyini göstərmişdir. Daxili İşlər Nazirliyi sorğuya cavabda bildirib ki, bu istiqamətdə hazırlıq işləri başlayıb. Amma monitorinq zamanı, xüsusilə səhiyyə, kənd təsərrüfatı istiqamətli dövlət proqramlarının sayının çox olmasına baxmayaraq, bu istiqamətdə portal yaradılmasının və ya hazırlıqların getməsinə şahid olmadıq. Aşağıdakı cədvəl dövlət proqramları üçün internet portalların yaradılması vəziyyətini xarakterizə edir.

| **Proqramın adı** | **Əlaqələndirici orqan** | **İnternet portalın yaradılması vəziyyəti** |
|---|---|---|
| Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı | Əmlak Məsələləri üzrə Dövlət Komitəsi | Yaradılmayıb |
| 2013-2017-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafı Dövlət Proqramı | Dövlət Statistika Komitəsi | Yaradılıb (saytda xüsusi bölmə şəklində) |
| 2009-2015-ci illərdə Azərbaycan Respublikasında sığorta-pensiya sisteminin inkişafına dair Dövlət Proqramı | Dövlət Sosial Müdafiə Fondu | Yaradılmayıb |
| 2008-2015-ci illərdə Azərbaycan Respublikasında Əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı | Nazirlər Kabineti | Yaradılmayıb |

| | | |
|---|---|---|
| Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı | Mədəniyyət və Turizm Nazirliyi | Yaradılmayıb |
| 2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf üzrə Dövlət Proqramı | Nazirlər Kabineti | Yaradılmayıb |
| Azərbaycan gəncliyi 2011-2015-ci illərdə Dövlət Proqramı | Nazirlər Kabineti | Yaradılmayıb |
| Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə 2011-2015-ci illər üçün Dövlət Proqramı | Nazirlər Kabineti | Yaradılmayıb |
| Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı | Nazirlər Kabineti | Yaradılmayıb |
| Azərbaycan Respublikasında biometrik eyniləşdirmə sisteminin yaradılması üzrə 2007-2012-ci illər üçün Dövlət Proqramı | Nazirlər Kabineti | Yaradılmayıb |
| 2007-2015-ci illərdə | Azərbaycan | Yaradılıb |

| | | |
|---|---|---|
| Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı | Respublikasının Prezidenti yanında Təhsil üzrə Komissiya | http://xaricdetehsil.edu.gov.az/ |
| Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (De-institusionalizasiya) və alternativ qayğı Dövlət Proqramı (2006-2015-ci illər) | Nazirlər Kabineti | Yaradılıb Təhsil Nazirliyində proqramın icrası ilə məşğul olan ayrıca idarə yaradılıb. İdarənin fəaliyyəti nazirliyin saytında xüsusi bölmədə yerləşdirilir: http://www.edu.gov.az/view.php?lang=az&menu=401 |
| 2008-2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı | Təhsil Nazirliyi | Yaradılmayıb |
| Azərbaycan Respublikasında texniki peşə təhsilinin inkişafı üzrə Dövlət Proqramı (2007-2012-ci illər) | Təhsil Nazirliyi | Yaradılmayıb |

| | | |
|---|---|---|
| 2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı | Nazirlər Kabineti | Yaradılmayıb |
| Azərbaycan Respublikasında yanacaq-enerji kompleksinin inkişafı üzrə (2005-2015-ci illər) Dövlət Proqramı | Sənaye və Energetika Nazirliyi | Yaradılmayıb |
| Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı | Əvvəlcə proqramın icrasına rəhbərlik Sənaye və Energetika Nazirliyinə verilib. Lakin ölkə Prezidentinin_1 fevral 2013-cü il tarixli, 810 saylı fərmanı ilə Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi yarad ılaraq proqramın icrasına rəhbərlik ona | Yaradılmayıb. |

| | | |
|---|---|---|
| | həvalə olunub. Lakin hələlik nəinki proqramın, heç Agentliyin də internet saytı yaradılmayıb. | |
| Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” | İqtisadi İnkişaf Nazirliyi | Yaradılıb. Saytda xüsusi bölmə. |
| Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı | İqtisadi İnkişaf Nazirliyi | Yaradılmayıb |
| 2011-2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafina dair Dövlət Proqramı | İqtisadi İnkişaf Nazirliyi | Yaradılıb. Saytda bölmə kimi. |
| Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı | İqtisadi İnkişaf Nazirliyi | Yaradılıb. Saytda bölmə kimi. |
| 2011-2015-ci illər üçün hemofiliya xəstəliyi üzrə Tədbirlər Proqramı | Səhiyyə Nazirliyi | Yaradılmayıb |
| 2011-2015-ci illər üçün qanın, qan komponentlərinin donorluğu və qan xidmətinin inkişafına dair Tədbirlər Proqramı | Səhiyyə Nazirliyi | Yaradılmayıb |

| | | |
|---|---|---|
| 2011-2015-ci illər üçün şəkərli diabet üzrə Tədbirlər Proqramı | Səhiyyə Nazirliyi | Yaradılmayıb |
| 2011-2015-ci illər üçün talassemiyanın müalicə və profilaktikası üzrə Tədbirlər Proqramı | Səhiyyə Nazirliyi | Yaradılmayıb |
| 2011-2015-ci illər üçün vərəmlə mübarizə üzrə Tədbirlər Proqramı | Səhiyyə Nazirliyi | Yaradılmayıb |
| 2011-2015-ci illər üçün xroniki böyrək çatışmazlığı üzrə Tədbirlər Proqramı | Səhiyyə Nazirliyi | Yaradılmayıb |
| 2010-2014-cü illər üçün Azərbaycan Respublikasının səhiyyə müəssisələrində tibbi kadr təminatı üzrə İnkişaf Proqramı | Səhiyyə Nazirliyi | Yaradılmayıb |
| Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010 — 2012-ci illər üçün Dövlət Proqramı (Elektron Azərbaycan) | Rabitə və İnformasiya Texnologiyalar ı Nazirliyi | Yaradılmayıb |
| Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət | Rabitə və İnformasiya Texnologiyalar ı Nazirliyi | Yaradılmayıb |

| | | |
|---|---|---|
| Proqramı | | |
| Azərbaycan Respublikasında kitabxana - informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı | Nazirlər Kabineti | Yaradılmayıb |
| Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə 2011-2015-ci illər üçün Dövlət Proqramı | ƏƏSMN | yaradılmayıb |
| Azərbaycan ədliyyəsinin inkişafına dair 2009-2013-cü illər üçün Dövlət Proqramı | | yaradılmayıb |
| Azərbaycan Respublikasında dəmiryolu nəqliyyat sisteminin 2010-2014-cü illərdə inkişafına dair Dövlət Proqramı | Nazirlər Kabineti | Yaradılmayıb |
| Azərbaycan Respublikasında kitabxana – informasiya sahəsinin 2008–2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı | | Yaradılmayıb |
| Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə illik | Milli Elmlər Akademiyası | Yaradılmayıb |

| | | |
|---|---|---|
| Strategiyanın həyata keçirilməsi ilə bağlı Dövlət Proqramı | | |
| Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramı | RYTN | Yaradılmayıb |
| Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət Proqramı | Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyası | Yaradılmayıb (Komissiyanın saytında yalnız proqram yerləşdirilib, onun icrasına dair hər hansı hesabat da yoxdur) |
| Azərbaycan Respublikasında kurortların 2009-2018-ci illərdə inkişafı üzrə "Dövlət Proqramı | Nazirlər Kabineti | Yaradılmayıb |

## 2.6 *Dövlət orqanlarının internet səhifələrinin müasir standartlara uyğun olaraq vahid nümunəvi formasının və minimum şərtlərinin müəyyən edilməsi*[13]

[13] İnternet səhifələrinin müasir standartlara uyğun olaraq vahid nümunəvi forması və minimum şərtləri Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 4 sentyabr tarixli, 189 nömrəli qərarı ilə təsdiq edilmiş "Dövlət orqanlarının internet informasiya ehtiyatlarının yaradılmasına və idarə edilməsinə dair Tələblər"lə tənzimlənir. Mənbə: http://e-qanun.az/framework/24256

**Məsul dövlət orqanları:** Nazirlər Kabineti, Xüsusi Dövlət Mühafizə Xidməti, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya
**İcra müddəti:** 2013-cü il

**Ölçmək üçün indikatorlar:** Azərbaycan Respublikası Nazirlər Kabinetinin illik hesabatına daxil edilmiş tədbirlər

***Metodoloji əsas:***
*0 – tədbirlər daxil edilməmişdir*
*1 – tədbirlər daxil edilmişdir*

**İcra vəziyyəti**
**Monitorinq balı: 1**
*(Tədbirlər daxil edilməmişdir)*

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2013-cü ilə dair illik hesabatı NK-nin rəsmi saytında yerləşdirilməyib, lakin millət vəkillərinə paylanmaq üçün kitab şəklində çap olunub. Həmin hesabatda və bu qurumdan verilən açıqlamada göstərilir ki, NK-nın 2012-ci il 4 sentyabr tarixli, 189 nömrəli qərarı ilə təsdiq edilmiş "Dövlət orqanlarının internet informasiya ehtiyatlarının yaradılmasına və idarə edilməsinə dair TƏLƏBLƏR" Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planının təsdiq olunmasından bir gün öncə qəbul edilsə də, dövlət orqanlarının internet səhifələri bu sənədə əsasən vahid nümunəvi formaya gətirilib, saytlara minimum tələblər tətbiq olunub və artıq bu proses yekunlaşıb.

***2.7 Azərbaycan Respublikası Nazirlər Kabinetinin Azərbaycan Respublikası Milli Məclisi qarşısındakı illik hesabatlarında açıq hökumətin təşviqi və korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilmiş tədbirlər***

**Məsul dövlət orqanları:** Nazirlər Kabineti
**İcra müddəti:** 2012-2015-ci illər

**Ölçmək üçün indikatorlar:** Azərbaycan Respublikası Nazirlər Kabinetinin Azərbaycan Respublikası Milli Məclisi qarşısındakı illik hesabatlarında açıq hökumətin təşviqi və korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilmiş tədbirlər haqqında məlumat.

***Metodoloji əsas:***
*0 – tədbirlər daxil edilməmişdir*
*1 – tədbirlər daxil edilmişdir*

**İcra vəziyyəti**
**Monitorinq balı: 0**
*(Tədbirlər daxil edilməmişdir)*

Azərbaycan Respublikası Nazirlər Kabinetinin Azərbaycan Respublikası Milli Məclisi qarşısındakı illik hesabatlarında açıq hökumətin təşviqi və korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilmiş tədbirlər haqqında məlumatlara rast gəlinməyib.

Ümumilikdə, NK-nın Parlament qarşısındakı illik hesabtaları nə Milli Məclisin, nə də Nazirlər Kabinetinin rəsmi saytında yerləşdirilib. Hazırkı qiymətləndirmə Milli Məclisin 16 mart 2012-ci il, 15 mart 2013-cü il və 14 mart 2014-cü il tarixli iclasında Nazirlər Kabinetinin Hesabat məruzəsi ilə çıxış edən Baş Nazir, Artur Rəsizadənin məruzəsi əsasında aparılmışdır. Baş nazirin çıxışında isə açıq hökumətin təşviqi və korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilmiş tədbirlər haqqında heç bir məlumat verilməyib.

Ancaq, Azərbaycan Respublikası Korrupsiyaya Qarşı Mübarizə Komissiyasının saytında belə məlumatlar yerləşdirilmişdir.

**4-cü istiqamət:**
***Dövlət orqanlarının fəaliyyətində ictimaiyyətin iştirakının genişləndirilməsi***
**ORTA BAL: 2.00**

***4.1 Dövlət orqanları tərəfindən ictimai əhəmiyyət kəsb edən qanun layihələrinin hazırlanması prosesinə vətəndaş cəmiyyəti nümayəndələrinin cəlb edilməsi, ictimai dinləmələrin keçirilməsi***

**Məsul dövlət orqanları:** Mərkəzi icra hakimiyyəti orqanları
**İcra müddəti:** Mütəmadi

**Ölçmək üçün indikatorlar:** Vətəndaş cəmiyyətinin nümayəndələrinin cəlb olunması yolu ilə işlənilmiş ictimai əhəmiyyətli qanun layihələrinin sayı.

***Metodoloji əsas:***
*3 - Əhəmiyyətli qanun layihələrinin yarısından çoxu vətəndaş cəmiyyətinin nümayəndələrinin cəlb olunması yolu ilə işlənilmişdir.*
*2 – Əhəmiyyətli qanun layihələrinin yarısından azı vətəndaş cəmiyyətinin nümayəndələrinin cəlb olunması yolu ilə işlənilmişdir.*
*1 – Qanun layihələrinin vətəndaş cəmiyyətinin nümayəndələrinin cəlb olunması yolu ilə işlənilməsinə hazırlıq aparılır.*
*0 – məqsədə nail olmaq üçün tərəqqi əldə edilməmişdir.*

**İcra vəziyyəti**
**Monitorinq balı: 2**

*(Əhəmiyyətli qanun layihələrinin yarısından azı vətəndaş cəmiyyətinin nümayəndələrinin cəlb olunması yolu ilə işlənilmişdir)*

"İctimai iştirakçılıq haqqında Azərbaycan Respublikasının Qanunu" 22 noyabr 2013-cü ildə qəbul olunub. Qanunda "Hüquqi aktların layihələrinin ictimai müzakirəsi" ictimai iştirakın 6 mümkün formasından[14] biri kimi göstərilir.

Qanunda mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının hazırladıqları hüquqi aktların layihələrinə dair ictimai dinləmə və ictimai müzakirə keçirilməsi qaydası müəyyən olunmayıb. Qanunun 19-cu maddəsində yazılır ki, mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının hazırladıqları hüquqi aktların layihələrinə dair ictimai dinləmə və ictimai müzakirə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada keçirilir.

Qanunun 5-ci fəsli "Hüquqi aktların layihələrinə dair ictimai dinləmə və ictimai müzakirə"si adlanır. Bu fəsildə Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edilən qanun layihələrinə dair ictimai dinləmə və ictimai müzakirə Azərbaycan Respublikası Milli Məclisinin Aparatı tərəfindən təşkil olunduğu göstərilir[15]. Bildirilir ki, qanun layihələrinə dair ictimai dinləmə və ictimai müzakirənin təşkili üçün Azərbaycan Respublikası

---

[14] Maddə 5.1. İctimai iştirakçılığın formalarına aşağıdakılar aiddir:

5.1.1. ictimai şura;

5.1.2. ictimai müzakirə;

5.1.3. ictimai dinləmə;

5.1.4. ictimai rəyin öyrənilməsi;

5.1.5. hüquqi aktların layihələrinin ictimai müzakirəsi;

5.1.6. yazılı məsləhətləşmə

[15] Yenə orada. Maddə 18

Milli Məclisinin Aparatı rəsmi internet səhifəsində xüsusi bölmə ayırmalı, Milli Məclisinin Aparatında qeydiyyata alınmış bütün qanun layihələrini müvafiq komitəyə göndərdikdən sonra üç gün ərzində öz internet səhifəsinin xüsusi bölməsində yerləşdirməlidirlər.

Milli Məclisinin internet səhifəsinin xüsusi bölməsində qanun layihəsi ilə birlikdə onu təqdim edən subyekt, layihənin qeydiyyat nömrəsi, göndərildiyi komitə (komitələr), ictimai dinləmələrin qrafiki və keçiriləcəyi yer və ictimai müzakirənin müddəti, keçirilməsi qaydaları, rəy, irad və təkliflərin təqdim olunması qaydası, onlara baxılması və nəticələrin açıqlanacağı müddətlər barəsində məlumat yerləşdirilməli və qanun layihələrinə dair təqdim olunmuş rəy, irad və təkliflərin nəzərə alınmasının nəticələri barəsində ictimaiyyət məlumatlandırılmalıdır.

Milli Məclisin rəsmi saytında (www.meclis.gov.az) "Qanun layihələri" bölməsində parlamentə təqdim edilmiş layihələr vaxtaşırı müzakirə üçün yerləşdirilir. Ancaq, təəssüf ki, onu təqdim edən subyekt, layihənin qeydiyyat nömrəsi, göndərildiyi komitə (komitələr), ictimai dinləmələrin qrafiki və keçiriləcəyi yer və ictimai müzakirənin müddəti, keçirilməsi qaydaları, rəy, irad və təkliflərin təqdim olunması qaydası, onlara baxılması və nəticələrin açıqlanacağı müddətlər barəsində heç bir məlumata rast gəlinmir.

Milli Məclisin saytından başqa, http://icazeler.gov.az/ saytında da müzakirə edilməsi üçün müvafiq qanunvericilik aktlarının layihələri yerləşdirilir.

www.icazeler.gov.az saytı Azərbaycan Respublikası Prezidentinin "Müəyyən sahibkarlıq fəaliyyəti növləri ilə məşğul

olmaq üçün tələb edilən xüsusi razılıq (lisenziya) və icazə sistemi ilə bağlı bəzi məsələlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 26 oktyabr 2011-ci il tarixli, 509 nömrəli Fərmanına uyğun olaraq yaradılmışdır. Həmin fərmanda Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyinə tapşırılırdı ki, üç ay müddətində Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanlarının verdikləri icazələr barəsində məlumatı (icazə növünün adı, hüquqi əsası, tələb edilən sənədlərin siyahısı, icazəni verən orqanın adı, hüquqi ünvanı və s.) əks etdirən İnternet portalı yaratsın. Nazirliyə tapşırılırdı ki, portalda "sahibkarlıq sahəsinə aid qanunvericilik aktlarının layihələri" xidmət bölməsi yaradılsın, mərkəzi və yerli icra hakimiyyəti orqanlarının hazırladığı sahibkarlıq sahəsinə aid olan qanunvericilik aktlarının layihələrinin həmin portalda yerləşdirilməsi və göstərilən layihələrin mətninin portalda bir ay müddətində saxlanılması təmin edilsin.

Göründüyü kimi www.meclis.gov.az saytında yerləşdirilən qanun layihələri ilə www.icazeler.gov.az saytındakı normativ aktların layihələr və bu saytların hədəf götürdüyü qruplar fərqlidir. Birinci saytda yalnız MM-ə təqdim olunmuş qanun layihələri, ikinci saytda isə sahibkarlıqla bağlı bütün normativ-hüquqi aktların layihələri müzakirə üçün yerləşdirilir. Birinci sayt səsvermə hüququ olan bütün Azərbaycan əhalisi, ikinci sayt isə sırf sahibkarlar üçün nəzərdə tutulmuşdur.

"İctimai iştirakçılıq haqqında" Qanununun tətbiqi barəsində Azərbaycan Respublikası Prezidentinin 16 yanvar 2014-cü il Fərmanında Nazirlər Kabinetinə tapşırılırdı ki, 3 ay müddətində mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının hazırladıqları hüquqi aktların layihələrinə dair ictimai dinləmə və ictimai müzakirənin

keçirilməsi qaydasını müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

Nəhayət ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 may 2014-cü il tarixli, 172 nömrəli qərarı ilə "Mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının hazırladıqları hüquqi aktların layihələrinə dair ictimai dinləmə və ictimai müzakirənin keçirilməsi Qaydası" təsdiq edildi.

Qaydada konkret olaraq yazılıb ki, mərkəzi icra hakimiyyəti orqanlarının hazırladıqları hüquqi aktların layihələrinə dair ictimai dinləmə həmin hüquqi aktların layihələrinə dair ictimaiyyətlə məsləhətləşmələrin keçirilməsi və vətəndaşların məlumatlandırılması məqsədi ilə aidiyyəti orqanların səlahiyyətli nümayəndələrinin, vətəndaş cəmiyyəti institutlarının, ayrı-ayrı vətəndaşların, mütəxəssis və ekspertlərin iştirakı ilə yığıncaqların keçirilməsidir[16].

Qayda ilə müəyyən olunub ki, mərkəzi icra hakimiyyəti orqanları hazırladıqları hüquqi aktların layihələrinə dair ictimai dinləmə və ictimai müzakirənin təşkili üçün hər biri özünün rəsmi internet səhifəsində xüsusi bölmə ayırır və həmin səhifədə "elektron hökumət" portalına keçidi təmin edir.

Mərkəzi icra hakimiyyəti orqanı hazırladığı normativ hüquqi aktların layihələrini razılaşdırılması üçün göndərildiyi andan özünün rəsmi internet səhifəsinin xüsusi bölməsində və "elektron hökumət" portalında yerləşdirir. Vətəndaş cəmiyyəti institutlarının, ayrı-ayrı vətəndaşların, mütəxəssis və ekspertlərin rəy, irad və təkliflərinin alınması məqsədi ilə layihələrin 60 gün,

[16] Mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının hazırladıqları hüquqi aktların layihələrinə dair ictimai dinləmə və ictimai müzakirənin keçirilməsi Qaydası. Maddə 1.3

yuxarı icra orqanı tərəfindən normativ hüquqi aktın layihəsinin hazırlanması üçün 3 ay və ya daha az müddət müəyyən edildikdə, 10 gün müddətində həmin orqanların rəsmi internet səhifəsinin xüsusi bölmələrində qalmasını təmin edirlər.

Mərkəzi icra hakimiyyəti orqanının rəsmi internet səhifəsinin xüsusi bölməsində normativ hüquqi aktın layihəsi ilə birlikdə layihənin Azərbaycan Respublikası Prezidentinin hansı aktının icrası məqsədi ilə qəbul olunduğu, ictimai dinləmələrin qrafiki və keçiriləcəyi yer və ictimai müzakirənin müddəti, keçirilməsi qaydaları, rəy, irad və təkliflərin təqdim olunması qaydası, onlara baxılması və nəticələrin açıqlanacağı müddətlər barəsində məlumatı yerləşdirirlər. Dövlət orqanı vətəndaş cəmiyyəti institutlarının, ayrı-ayrı vətəndaşların, mütəxəssis və ekspertlərin hüquqi akt layihəsinə dair verdikləri rəy, irad və təkliflərin özünün rəsmi internet səhifəsinin xüsusi bölməsində saxlanılmasını təmin edir və digər istifadəçilərə bu rəy, irad və təkliflərlə tanış olmaq imkanını yaradırlar. Layihələrə dair təqdim olunmuş rəy, irad və təkliflərə baxılmasının nəticələri barəsində ictimaiyyəti məlumatlandırır, rəy, irad və təkliflər nəzərə alınmaqla layihədə dəyişikliklər edildiyi halda layihənin yenilənmiş mətnini həmin orqanların rəsmi internet səhifəsində yerləşdirirlər[17].

Qaydada ictimai dinləmə və müzakirənin açıq keçirilməsi tələbi qoyulur: "Fəaliyyət qabiliyyətinə malik istənilən vətəndaş və vətəndaş cəmiyyəti institutları ictimai dinləmə və ictimai müzakirələrdə iştirak edə və müzakirə olunan məsələ barəsində öz mülahizələrini bildirə bilərlər"[18].

---

[17] Yenə orada. 2. Mərkəzi və yerli icra hakimiyyəti orqanlarının hazırladıqları hüquqi aktların layihələrinə dair ictimai dinləmə və ictimai müzakirənin təşkili

[18] Yenə orada. 3. Mərkəzi və yerli icra hakimiyyəti orqanlarının hazırladıqları hüquqi aktların layihələrinə dair ictimai dinləmə və ictimai müzakirənin keçirilməsi

Çox təəssüf ki, monitorinqə cəlb olunmuş əksər mərkəzi icra hakimiyyəti orqanları bu tələbə əməl etmirlər. Monitorinqi aparılan 48 mərkəzi icra hakimiyyətindən yalnız 14-ü belə müzakirələrin aparılmasını təşkil etmişdir. Bəzi mərkəzi dövlət qurumlarının saytlarında müvafiq menyular olsa da, ora qanun layihələri yerləşdirilməyib.

Bütün hallarda ictimai müzakirəyə çıxarılan qanun layihələrinin qəbulu zamanı vətəndaş cəmiyyəti tərəfindən verilmiş hansı təkliflərin qəbulu ilə bağlı nə sorğulara verilən cavablarda, nə də rəsmi saytlarda yetərli məlumat var. Qaydada nəzərdə tutulduğu tələblər çərçivəsində hər hansı mərkəzi icra hakimiyyəti qurumunun ictimai dinləmə keçirməsi faktı monitorinq zamanı qeydə alınmamışdır. İctimai dinləmə keçirən mərkəzi icra hakimiyyəti orqanları əksər hallarda tələblərə qismən riayət etmişlər.

Açıq Hökumətin təşviqinə dair Milli Fəaliyyət Planının (2012-2015-ci illər) yerinə yetirilməsi ilə əlaqədar 2012-2013-cü illər ərzində görülən işlər barəsində Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının məlumatında deyilir ki, Komissiya qeyd edir ki, dövlət orqanları qanunvericiliyin təkmilləşdirilməsi sahəsində vətəndaş cəmiyyəti üzvləri ilə sıx əməkdaşlıq etməli, onların təcrübəsindən istifadə etməli, fikir və rəylərini daim öyrənməlidir. Bununla bağlı mütəmadi ictimai dinləmələrin keçirilməsi və ictimai şuraların fəaliyyətinin təmin edilməsi üçün tədbirlər həyata keçirilməlidir. Eyni zamanda ictimai müzakirəsi həyata keçirilən normativ aktlar və ya mövzular, müzakirələrin nəticələri ilə bağlı məlumatlar ictimaiyyət üçün açıq olmalıdır[19].

---

19

http://antikorrupsiya.gov.az/upload/file/OGP%20monitorinq%20hesabati%202013.pdf

### *4.2 Əhaliyə xidmət göstərən dövlət orqanları tərəfindən vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın təkmilləşdirilməsi üçün müvafiq şuraların və ya əməkdaşlıq şəbəkələrinin yaradılması*

**Məsul dövlət orqanları:** Mərkəzi və yerli icra hakimiyyəti orqanları
**İcra müddəti:** 2012-2013

**Ölçmək üçün indikatorlar:** Əhaliyə xidmət göstərən dövlət orqanları tərəfindən yaradılmış müvafiq şuraların və ya əməkdaşlıq şəbəkələrinin sayı.

***Metodoloji əsas:***
*2 – bütün dövlət orqanları tərəfindən əhaliyə xidmət göstərən müvafiq şuralar və ya əməkdaşlıq şəbəkələri yaradılmışdır.*
*1 – bəzi dövlət orqanları tərəfindən əhaliyə xidmət göstərən müvafiq şuralar və ya əməkdaşlıq şəbəkələri yaradılmışdır.*
*0 – planlaşdırılan tədbirlərin reallaşdırılmasını təsdiq edən hallar aşkara çıxarılmayıb.*

**İcra vəziyyəti**
**Monitorinq balı: 1**
*(Bəzi dövlət orqanları tərəfindən əhaliyə xidmət göstərən müvafiq şuralar və ya əməkdaşlıq şəbəkələri yaradılmışdır)*

Bu fəaliyyətin 2012-ci ildə başlanılması nəzərdə tutulsa da, müvafiq qanunvericilik bazası xeyli gec formalaşdırılıb. Tələb edilən formatda şura və əməkdaşlıq şəbəkələri Gənclər və İdman, Ədliyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi, Ekologiya və Təbii Sərvətlər nazirliklərində, həmçinin Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar

üzrə Dövlət Agentliyində, Dövlət Sosial Müdafiə Fondunda və digər dövlət qurumlarında yaradılmışdır.

"İctimai iştirakçılıq haqqında Azərbaycan Respublikasının Qanunu" 22 noyabr 2013-cü ildə qəbul olunsa da, onun qüvvəyə minməsi 2014-cü il iyunun 1-dən nəzərdə tutulub. "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikasının 2013-cü il 22 noyabr tarixli 816-IVQ nömrəli Qanununun tətbiqi barəsində Azərbaycan Respublikası Prezidentinin Fərmanına uyğun olaraq Nazirlər Kabineti 30 may 2014-cü ildə "İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə"nin təsdiq edilməsi haqqında qərar qəbul edib. Əsasnamə ictimai şuraların təşkili qaydalarını tənzimləyir.

Bu qərarın qəbulundan sonra Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası, ABŞ və Azərbaycan Hökuməti tərəfindən birgə maliyyələşdirilən "Azərbaycanda Sosial-İqtisadi İnkişaf Fəaliyyəti" (SEDA) layihəsi çərçivəsində "Sosial Tərəqqi" İctimai Birliyinin təşkilatçılığı ilə Yevlax, Goranboy, Samux, Göygöl, Gədəbəy, Daşkəsən, Şəmkir, Tovuz, Ağstafa, Qazax, Ucar, Ağdaş, Bərdə, Ağcabədi, Göyçay və Mingəçevirdə ictimai şuraların yaradılması üzrə məlumatlandırma seminarları keçirilib.

Mərkəzi icra hakimiyyətləri içərisində ilk ictimai şuranın Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yanında yaradılması nəzərdə tutulur.

Yerli icra hakimiyyətləri yanında ictimai şuraların yaradılması sahəsində vəziyyət daha pisdir. Rəsmi sorğulara cavablarda bəzi yerli icra hakimiyyətləri Ağsaqqallar Şurasını ictimai şura kimi təqdim ediblər. Azərbaycanın demək olar ki, bütün rayonlarında Ağsaqqallar Şurası fəaliyyət göstərir.

Ağsaqqallar Şurası qeyri-hökumət təşkilatı olduğundan onun fəaliyyəti "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Qanunla tənzimlənir və o, heç bir halda İctimai Şuranı əvəz edə bilməz. Yerli icra hakimiyyətləri arasında yalnız Binəqədi İcra Hakimiyyətində "İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə"nin tələblərinə əməl edilərək ictimai şura yaradılıb.

*"Açıq Hökumətin təşviqinə dair Milli Fəaliyyət Planının (2012-2015-ci illər) yerinə yetirilməsi ilə əlaqədar 2012-2013-cü illər ərzində görülən işlər barəsində Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının məlumatı"nda*[20] *göstərilir ki, ümumi olaraq mərkəzi icra hakimiyyəti orqanları yanında ictimai şuraların sayı məhduddur. Bununla bağlı cari ilin 16 yanvar 2014-ci il tarixində qəbul edilmiş "İctimai iştirakçılıq haqqında" Qanunun tələblərinin icra edilməsi və dövlət orqanlarının yanında ictimai şuraların fəaliyyətinin təmin edilməsi zəruridir.*

***4.3 İctimai maraq kəsb edən qərarların qəbul edilməsi prosesində ictimaiyyətin iştirakını genişləndirmək vasitəsi kimi internet səhifələrindən istifadə edilməsi (vətəndaşların təklif və rəylərinin qəbul edilməsi, müzakirələrin təşkil edilməsi, interaktiv sual-cavab bölmələrinin yaradılması və s.)***

**Məsul dövlət orqanları:** Mərkəzi və yerli icra hakimiyyəti orqanları
**İcra müddəti:** Mütəmadi

---

20

http://antikorrupsiya.gov.az/upload/file/OGP%20monitorinq%20hesabati%202013.pdf

**Ölçmək üçün indikatorlar:** İnternet səhifələrindən qərarların qəbulu prosesində ictimai iştirakçılığı genişləndirmək məqsədilə istifadə edən yerli və mərkəzi icra hakimiyyəti orqanlarının sayı.

***Metodoloji əsas:***
*3 – yerli və mərkəzi icra hakimiyyəti orqanlarının 70 faizindən çoxu internet səhifələrindən qərarların qəbulu prosesində ictimai iştirakçılığı genişləndirmək məqsədilə istifadə edir.*
*2 - yerli və mərkəzi icra hakimiyyəti orqanlarının 20 faizindən 70 faizə qədəri internet səhifələrindən qərarların qəbulu prosesində ictimai iştirakçılığı genişləndirmək məqsədilə istifadə edir.*
*1 – yerli və mərkəzi icra hakimiyyəti orqanlarının 20 faizindən azı internet səhifələrindən qərarların qəbulu prosesində ictimai iştirakçılığı genişləndirmək məqsədilə istifadə edir.*
*0 – İnternet səhifələr qərarların qəbulunda ictimai iştirakçılığı artırmaq üçün istifadə olunmur .*

**İcra vəziyyəti**
**Monitorinq balı: 2**
*(Yerli və mərkəzi icra hakimiyyəti orqanlarının 20 faizindən 70 faizə qədəri internet səhifələrindən qərarların qəbulu prosesində ictimai iştirakçılığı genişləndirmək məqsədilə istifadə edir)*

Monitorinqə cəlb olunan 48 mərkəzi icra hakimiyyəti orqanının demək olar ki, hamısında interaktiv sual-cavab bölmələri, elektron müraciət imkanı yaradılıb, ən çox verilən sualların cavabları ayrıca menyu altında yerləşdirilib.

Ancaq yerli icra hakimiyyəti orqanları haqqında bunu demək çətindir. Monitorinq zamanı yerli icra hakimiyyəti orqanlarının saytlarının analizi göstərib ki, bütün saytlarda elektron müraciət üçün imkan yaradılsa da, bu formal xarakter daşıyır, internet səhifələrindən ictimai iştirakçılığın artırılması və

ictimai müzakirələrin aparılması vasitəsi kimi istifadə olunmur. Yalnız Binəqədi rayon icra hakimiyyətinin saytı istisnadır.

### *4.4 Dövlət orqanları tərəfindən "Açıq qapı" vətəndaş forumlarının keçirilməsi*

**Məsul dövlət orqanları:** Mərkəzi və yerli icra hakimiyyəti orqanları
**İcra müddəti:** Mütəmadi

**Ölçmək üçün indikatorlar:** "Açıq qapı" vətəndaş forumlarının keçirilməsini təmin edən mərkəzi və yerli icra hakimiyyəti orqanlarının sayı

***Metodoloji əsas:***
3 – mərkəzi və yerli icra hakimiyyəti orqanlarının 70 faizindən çoxu "Açıq qapı" vətəndaş forumları təşkil edib.
2 – mərkəzi və yerli icra hakimiyyəti orqanlarının 20 faizindən 70 faizə qədəri "Açıq qapı" vətəndaş forumları təşkil edib.
1 – mərkəzi və yerli icra hakimiyyəti orqanlarının 20 faizindən azı "Açıq qapı" vətəndaş forumları təşkil edib.
0 – "Açıq qapı" vətəndaş forumları təşkil olunmayıb.

**İcra vəziyyəti**
**Monitorinq balı: 3**

Milli Fəaliyyət planının 4-cü istiqamətinin yeganə altbölməsidir ki, əksər mərkəzi və yerli icra hakimiyyəti qurumları buna əməl edirlər. Monitorinqə cəlb olunmuş 94 mərkəzi və yerli icra hakimiyyəti orqanından 78-də, başqa sözlə desək, 83%-də "Açıq qapı" vətəndaş forumlarının keçirilməsi mütəmadi həyata keçirilir. Forumların keçirilməsi ilə bağlı elanlar və forumda müzakirə olunan məsələlər barəsində məlumatlar müntəzəm

olaraq müvafiq icra hakimiyyəti orqanlarının internet saytlarına yerləşdirilir.

**5-ci istiqamət:**
***Elektron xidmətlərin təkmilləşdirilməsi***
**ORTA BAL: 2.00**

***5.1 Elektron xidmətlər göstərilməsi üzrə qiymətləndirmənin həyata keçirilməsi (1) və ictimaiyyətə açıqlanması (2)***

**Məsul dövlət orqanları:** Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi
**İcra müddəti:** Mütəmadi

**Ölçmək üçün indikatorlar: 5.1.1 üzrə.** Bütün növ elektron xidmətlərin göstərilməsinin qiymətləndirilməsinin aparılması faktı.

***Metodoloji əsas:***
*2 – elektron xidmətlərin göstərilməsinin qiymətləndirilməsi aparılır.*
*1 –elektron xidmətlərin göstərilməsinin qiymətləndirilməsinin hazırlıq işi aparılır.*
*0 – planlaşdırılan tədbirlərin reallaşdırılmasını təsdiq edən hallar aşkara çıxarılmayıb.*

**Ölçmək üçün indikatorlar: 5.1.2 üzrə.** Nəticələrin dərci faktı
***Metodoloji əsas:***
*2 – elektron xidmətlərin göstərilməsinin qiymətləndirilməsinin nəticələri dərc olunmuşdur.*
*1 – elektron xidmətlərin göstərilməsinin qiymətləndirilməsinin*

*nəticələri hələ dərc olunmayıb, ona hazırlıq gedir.*
0 – *elektron xidmətlərin göstərilməsinin qiymətləndirilməsinin dərci ilə bağlı faktlar tapılmayıb.*

**İcra vəziyyəti**
**5.1.1 üzrə**
**Monitorinq balı: 2**
*(Elektron xidmətlərin göstərilməsinin qiymətləndirilməsi aparılır)*

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi "Dövlət orqanlarında elektron xidmətlərin təşkili və göstərilməsi üzrə qiymətləndirmə Qaydaları"na dəyişikliklər edərək yenidən təsdiq edib.

Bundan əlavə həmin Agentlik 45 dövlət orqanında elektron xidmətlərin təşkili və göstərilməsi ilə bağlı qiymətləndirmə aparmışdır. Qiymətləndirmədə hər bir dövlət orqanı üzrə monitorinqin başlama və bitmə dövrləri qeyd edilmişdir. Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə ünvanlanmış informasiya sorğusuna cavab olaraq 19.05.2014-cü il tarixli, HKŞ-34/36 nömrəli məktubla bildirilmişdir ki, qiymətləndirmədə Nazirliyin əməkdaşı da iştirak edib.

Bundan əlavə Nazirlik öz veb səhifəsində aylıq olaraq elektron xidmətlərin "Elektron portal"a inteqrasiyası ilə bağlı statistik göstəriciləri, elektron xidmətlərdən istifadə edənlərin sayı, "Elektron hökumət" portalı vasitəsi ilə təqdim olunan e_xidmətlərin statistik göstəriciləri və s. bu kimi xəbərləri bülleten formasında yerləşdirir.

**5.1.2 üzrə**

**Monitorinq balı: 2**
*(Elektron xidmətlərin göstərilməsinin qiymətləndirilməsinin nəticələri dərc olunmuşdur)*

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi "Dövlət orqanlarında elektron xidmətlərin təşkili və göstərilməsi üzrə qiymətləndirmə Qaydaları"na dəyişikliklər edərək yenidən təsdiq edib və həmin Qaydaları öz veb səhifəsində yerləşdirib.[21]

Bundan əlavə, Agentlik 45 mərkəzi icra hakimiyyəti orqanında apardığı qiymətləndirmənin icra müddəti haqqında cədvəl hazırlayaraq öz veb səhifəsində yerləşdirmişdir[22].

Rabitə və Yüksək Texnologiyalar nazirliyi dövlət orqanlarının göstərdiyi elektron xidmətlərin statistik nəticələrini aylıq bülletenlər formasında öz veb səhifəsində yerləşdirmişdir[23].

***5.2 Dövlət orqanlarının öz səlahiyyətlərinə uyğun olaraq həyata keçirdikləri elektron xidmətlər barəsində ildə bir dəfədən az olmayaraq ictimai təqdimatlar keçirməsi***

**Məsul dövlət orqanları:** Mərkəzi icra hakimiyyəti orqanları
**İcra müddəti:** 2013-2015-ci illər

**Ölçmək üçün indikatorlar:** Elektron xidmətlər barəsində ildə bir dəfədən az olmayaraq ictimai təqdimatlar keçirən dövlət orqanlarının sayı

---

21 http://www.asan.gov.az/az/content/view/349/2427
22 http://vxsida.gov.az/redirect/index/cat_id/69/MainOrNot/1
23 https://www.e-gov.az/az/content/read/42

***Metodoloji əsas:***
*3 – elektron xidmətlər göstərmək səlahiyyəti olan mərkəzi və yerli icra hakimiyyətlərinin 70 faizindən çoxunda ən azı 1 dəfə də olsun təqdimat keçirilib.*
*2 – elektron xidmətlər göstərmək səlahiyyəti olan mərkəzi və yerli icra hakimiyyətlərinin 20 faizindən 70 faizinə qədərində ən azı 1 dəfə də olsun təqdimat keçirilib.*
*1 – elektron xidmətlər göstərmək səlahiyyəti olan mərkəzi və yerli icra hakimiyyətlərinin ən azı 20 faizində ən az ildə 1 dəfə də olsun təqdimat keçirilib.*
*0 – elektron xidmətlərin təqdimatına dair heç bir tədbir keçirilməyib.*

**İcra vəziyyəti**
**Monitorinq balı: 2**
*(Elektron xidmətlər göstərmək səlahiyyəti olan mərkəzi və yerli icra hakimiyyətlərinin 20 faizindən 70 faizinə qədərində ən azı 1 dəfə də olsun təqdimat keçirilib)*

Elektron xidmətlər göstərən mərkəzi icra hakimiyyəti orqanlarında olan elektron xidmətlərlə bağlı ictimai təqdimatları cəmi 17 mərkəzi icra hakimiyyəti orqanının həyata keçirməsi müşahidə olunub. Bu da manitorinqə cəlb edilən qurumların 35,4%-nin belə təqdimatlar keçirməsini ifadə edir. Lakin, bu 17 qurumun da keçirdiyi ictimai təqdimatların məhz elektron xidmətlərə həsr edildiyini deyə bilmərik. Belə ki, əksər mərkəzi icra hakimiyyəti orqanları göstərdikləri elektron xidmətlərlə bağlı təqdimatlarını hər hansı digər bir mövzuya həsr edilmiş müxtəlif tədbirlərdə keçirdiklərini bildiriblər.

Göstərdiyi elektron xidmətlərin təqdimatını mütəmadi və sistemli təşkil edən qurumlara nümunə kimi İqtisadiyyat və

Sənaye Nazirliyini, Dövlət Sosial Müdafiə Fondunu və Rabitə və Yüksək Texnologiyalar Nazirliyini misal çəkmək olar. Bu orqanlar hesabat dövrü ərzində ölkənin müxtəlif bölgələrində göstərdikləri elektron xidmətlərlə bağlı ictimai təqdimatlar keçirmişlər.

### *5.3 Dövlət orqanları arasında elektron informasiya dövriyyəsinin təmin edilməsi məqsədi ilə vahid sistemin yaradılması*

**Məsul dövlət orqanları:** Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, Xüsusi Dövlət Mühafizə Xidməti
**İcra müddəti:** 2013-2014-cü illər

**Ölçmək üçün indikatorlar:** Dövlət orqanları arasında elektron informasiya dövriyyəsinin təmin edilməsi məqsədi ilə vahid sistemin yaradılması faktları

***Metodoloji əsas:***
2 – *Dövlət orqanları arasında elektron informasiya dövriyyəsinin təmin edilməsi məqsədi ilə vahid sistem yaradılmışdır.*
*1 – Dövlət orqanları arasında elektron informasiya dövriyyəsinin təmin edilməsi məqsədi ilə vahid sistemin yaradılmasına hazırlıq işi aparılır.*
*0 – Dövlət orqanları arasında elektron informasiya dövriyyəsinin təmin edilməsi məqsədi ilə vahid sistemin yaradılmasına dair heç bir fakt aşkara çıxarılmayıb.*

**İcra vəziyyəti**
**Monitorinq balı: 2**

*(Dövlət orqanları arasında elektron informasiya dövriyyəsinin təmin edilməsi məqsədi ilə vahid sistem yaradılmışdır)*

Rabitə və Yüksək Texnologiyalar nazirliyinə ünvanlanmış informasiya sorğusuna cavab olaraq bildirilib ki, Elektron Hökumət Dövlət İnformasiya Sistemi yaradılmış və 40 dövlət orqanının bu sistemə qoşulması təmin edilmişdir.

Dövlət orqanlarının informasiya sistemləri arasında informasiya mübadiləsinin təşkilinə və vətəndaşların dövlət orqanlarının göstərdiyi elektron xidmətlərdən "bir pəncərə" prinsipi əsasında istifadəsinə şərait yaratmaq məqsədilə www.e-gov.az "elektron hökumət" portalı yaradılaraq istifadəyə verilmişdir.

Qeyd edək ki, hesabat dövrü ərzində təsdiq edilmiş e_xidmətlərin sayı 446 olmuşdur. Bunlardan 296-ı portala inteqrasiya olunmuşdur. Portalda olan e_xidmətlərin ümumi sayı isə 374-dur. Başqa sözlə desək, portalda 78 təsdiq edilməmiş xidmətlər də mövcuddur. Buradan belə nəticəyə gəlmək olar ki, hesabat dövrü ərzində 150 təsdiq edilmiş xidmət portala cəlb edilməmişdir[24].

Qeyd edək ki, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə birlikdə "Dövlət informasiya sistemləri və informasiya ehtiyatları haqqında" qanun layihəsi hazırlayaraq hökumətə təqdim edib.

### *5.3 Rüsumların, vergilərin, inzibati cərimələrin, kommunal xərclərin və digər inzibati ödənişlərin elektron qaydada ödənilməsinin təkmilləşdirilməsi*

---

[24] http://www.mincom.gov.az/assets/Uploads/bulleten%2022_portala.pdf

**Məsul dövlət orqanları:** Mərkəzi icra hakimiyyəti orqanları, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi
**İcra müddəti:** 2013-2014-cü illər

**Ölçmək üçün indikatorlar:** Rüsumların, vergilərin, inzibati cərimələrin, kommunal xərclərin və digər inzibati ödənişlərin elektron qaydada ödənilməsi faktları

***Metodoloji əsas:***
2 – *Rüsumların, vergilərin, inzibati cərimələrin, kommunal xərclərin və digər inzibati ödənişlərin elektron qaydada ödənilməsinə dair tədbirlər həyata keçirilmişdir.*
*1 – Rüsumların, vergilərin, inzibati cərimələrin, kommunal xərclərin və digər inzibati ödənişlərin elektron qaydada ödənilməsinə dair hazırlıq işləri aparılır.*
*0 - Rüsumların, vergilərin, inzibati cərimələrin, kommunal xərclərin və digər inzibati ödənişlərin elektron qaydada ödənilməsinə dair tədbirlərin hazırlanması və onun həyata keçirilməsi faktı aşkara çıxarılmamışdır.*

**İcra vəziyyəti**
**Monitorinq balı: 2**
*(Rüsumların, vergilərin, inzibati cərimələrin, kommunal xərclərin və digər inzibati ödənişlərin elektron qaydada ödənilməsinə dair tədbirlər həyata keçirilmişdir)*

Azərbaycan Respublikası Mərkəzi Bankı Milli Ödəniş Sistemi (MÖS) infrastrukturu yaradılmışdır. MÖS-ün yeni bir komponenti - Kütləvi Ödənişlər üzrə Mərkəzləşdirilmiş İnformasiya Sistemi (KÖMİS) yaradılaraq 11 iyul 2008-ci il tarixində istifadəyə verilmişdir. KÖMİS-in əsas məqsədi

kommunal və digər kütləvi xidmət müəssisələrinin daxili informasiya sistemlərinin inkişaf etdirilərək MÖS infrastrukturuna texnoloji inteqrasiyasının həyata keçirilməsi, kommunal xidmətləri üzrə ödənişlərin yığım səviyyəsinin və şəffaflığının daha da artırılması və bu sahədə maliyyə dövriyyəsinin bank sisteminə cəlb edilməsi olub.

Müasir texnologiya və proqram təminatına əsaslanan bu sistemin istifadəyə verilməsi nəticəsində abonentlərə sistemə qoşulmuş maliyyə qurumlarının istənilən ödəniş xidməti nöqtəsində kommunal xidməti borcları haqqında tam informasiya almaq və istənilən ödəniş mexanizmləri (nağd yolla, ödəniş kartları, bank köçürmələri, internet bankçılıq) vasitəsilə ilə ödəniş aparmaq imkanı yaradılıb.

Sistemə qoşulmuş kütləvi xidmət müəssisələrinin xeyrinə qəbul edilən ödənişlər haqqında məlumatlar 30 saniyə ərzində həmin təşkilatlara çatdırılır. Eyni zamanda, iştirakçı təşkilatların daxili informasiya sistemi ilə yaradılmış yüksək səviyyəli məlumat mübadiləsi interfeysi vasitəsilə bu təşkilatların elektron abonent bazasında baş verən dəyişikliklər real rejimdə mərkəzi informasiya bazasına ötürülür.

Dövlət orqanları tərəfindən göstərilən xidmətlərə görə rüsumların və digər ödənişlərin real vaxt rejimində, elektron formada ödənilməsinin təmin edilməsi məqsədi ilə Mərkəzi Bank tərəfindən KÖMİS-in bazasında “Hökumət Ödəniş Portalı” (HÖP) yaradılıb.

HÖP-ə inteqrasiya olunmuş dövlət orqanları üzrə ümumilikdə 220-dən çox növdə xidmətlərlə bağlı ödənişlər "Azərpoçt" MMC-nin və 42 bankın yaradılmış infrastruktura inteqrasiya olunmuş 1500-ə yaxın ödəniş məntəqəsində nağd

formada və portalın internet resurslarından[25] istifadə edilməklə ödəniş kartları vasitəsilə nağdsız qaydada qəbul edilir. Hazırda respublikanın dövlət sektorunda fəaliyyət göstərən "Azərenerji" ASC, "Bakıelektrikşəbəkə" ASC, "Azərsu" ASC, ARDNŞ-in "Azəriqaz" İB, "Azəristiliktəchizat" ASC kimi kommunal xidməti təşkilatları, Azərbaycan İpoteka Fondu, Dövlət Miqrasiya Fondu, Vergilər, İqtisadiyyat və Sənaye, Fövqəladə Hallar, Daxili İşlər nazirlikləri, Dövlət Sosial Müdafiə Fondu, Dövlət Gömrük Komitəsi və Baş Dövlət Yol Polisi İdarəsi artıq HÖP-ün infrastrukturuna inteqrasiya olunub.

Eyni zamanda, stasionar telefon xidmətləri göstərən “Bakı Telefon Rabitəsi” İB, “Aztelekom” İB və mobil rabitə operatorlarından “Azercell Telekom” MMC artıq portala qoşulmuşlar[26].

Vergilər Nazirliyi informasiya sorğusuna cavab olaraq bildirib ki, yaradılmış elektron ödəniş sistemindən istifadə etməklə 2013-cü ildə 754163 sayda ödəniş əsasında 154,4 milyon manat toplanıb.

### *5.5 Regionlarda əhalinin elektron xidmətlərdən istifadə imkanlarının artırılması üzrə tədbirlərin həyata keçirilməsi*

**Məsul dövlət orqanları:** Mərkəzi icra hakimiyyəti orqanları, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi
**İcra müddəti:** 2013-2014-cü illər

**Ölçmək üçün indikatorlar:** Əhalinin elektron xidmətlərdən

[25] www.gpp.az
[26] https://gpp.az/az/site/member/government

istifadə imkanlarının artırılması üzrə regionlarda tədbirlərin həyata keçirilməsinə dair faktlar

***Metodoloji əsas:***
*3 – Regionların 70 faizindən çoxunda əhalinin elektron xidmətlərdən istifadə imkanlarının artırılması üzrə ən azı 1 tədbir həyata keçirilib.*
*2- Regionların 20 faizdən 70 faizə qədərində əhalinin elektron xidmətlərdən istifadə imkanlarının artırılması üzrə ən azı 1 tədbir həyata keçirilib.*
*1 – Regionların 20 faizindən azında əhalinin elektron xidmətlərdən istifadə imkanlarının artırılması üzrə ən azı 1 tədbir həyata keçirilib.*
*0 –Əhalinin elektron xidmətlərdən istifadə imkanlarının artırılması üzrə heç bir tədbiri həyata keçirilməyib.*

**İcra vəziyyəti**
**Monitorinq balı: 2**
*(Regionların 20 faizdən 70 faizə qədərində əhalinin elektron xidmətlərdən istifadə imkanlarının artırılması üzrə ən azı 1 tədbir həyata keçirilib)*

Rabitə və Yüksək Texnologiyalar nazirliyindən “Milli genişzolaqlı internetin inkişafı” layihəsinin həyata keçirilməsi ilə əlaqədar Dövlət Proqramının reallaşdırılmasına başlamaları üçün aidiyyatı qurumlarla danışıqların davam etdirildiyini bildiriblər.

Qeyd edək ki, bu layihə ölkənin hər bir yaşayış məntəqəsində, hətta ən ucqar kəndlərdə fiber-optik kabel şəbəkəsi üzərindən əhalinin yüksəksürətli genişzolaqlı internet və digər müasir telekommunikasiya xidmətlərinə çıxışını nəzərdə tutur. Layihənin məqsədi ucqar kənd yaşayış məntəqələrini 30 Mbit/s, şəhərləri 100 Mbit/s həddində sürətli internetlə təmin etməklə,

ümumilikdə genişzolaqlı internet istifadəçilərinin sayını 85%-ə çatdırmaqdır[27].

Bundan əlavə, hesabat dövründə nazirlik Yevlax şəhərində alternativ regional xidmət mərkəzi yaradıb istifadəyə verib. Bununla da "Aztelekom.net" provayderinin Yevlax, Bərdə, Ağdam və Tərtər telekommunikasiya qovşaqlarının xidmət ərazilərində genişzolaqlı internet xidməti istifadəçiləri bu sistemə qoşulublar. Yaxın gələcəkdə həmin bölgənin digər rayonlarının da bu xidmətdən istifadəsinin təmin edilməsi nəzərdə tutulub.

Regionlarda əhalinin elektron xidmətlərdən istifadə imkanlarının artırılması və elektron xidmətlərlə bağlı maarifləndirilməsi məqsədilə Vətəndaşlara Xidmət və Sosial innovasiyalar üzrə Dövlət Agentliyi də ölkə ərazisində 37 rayonun əhalisi üçün 21 məntəqədə fəaliyyət göstərən səyyar "ASAN xidmət" avtobusları vasitəsilə tədbirlər həyata keçirib.

---

[27] "Milli genişzolaqlı internetin inkişafı" layihəsinin 2014-2016-cı illərdə həyata keçirilməsi planlaşdırılmışdı. Layihənin ümumi dəyəri 350 milyon manat hesablanmışdı. RYTN ilə ARDNF-nin ilkin razılaşmasına əsasən, Fond 2014-cü ildə layihənin başlaması üçün 105 milyon manat vəsait ayırmalı idi. Bununla əlaqədar RYTN "Booz&Co" beynəlxalq konsaltinq şirkəti ilə danışıqlar aparmış və onların iştirakı ilə layihənin ilkin qiymətləndirilməsi həyata keçirilmişdi. Lakin sonradan ARDNF layihənin kommersiya xarekterli olduğunu əsas gətirərək, maliyələşdirmədən imtina etdiyini bildirmişdi.

RYTN rəhbəri Əli Abbasov 18 fevral 2015-ci ildə verdiyi açıqlamada deyib ki, (http://az.salamnews.org/az/news/read/163849) "Milli genişzolaqlı internetin inkişafı" layihəsinin icrası 2016-cı ilə qədər təxirə salınıb: "Bildiyimiz ki, bu layihənin Dövlət Neft Fondu ilə birlikdə həyata keçirilməsi nəzərdə tutulurdu. Artıq bu layihənin 2016-cı ildən sonra icra olunması qərara alınıb. Bununla belə, layihənin tez bir vaxtda həyata keçirilməsi üçün yeni maliyyə mənbələri tapmışıq. Bu mənbələr çoxgüzəştli kreditlər vasitəsi ilə xarici bankların, beynəlxalq təşkilatların vəsaitləri hesabına maliyyələşəcək. Bu, bir çox layihələrə bölünüb. Bu layihələrdən əldə ediləcək gəlirlər hesabına investisiyaların geri qaytarılma müddəti 2-5 il nəzərdə tutulub. Əgər bu işlər baş tutarsa, dövlətin maliyyə resurslarına müraciət etməyəcəyik".

Dövlət Agentliyinin tabeliyində olan "ASAN xidmət" mərkəzlərindəki fəaliyyət istiqamətlərindən biri olan "Özünəxidmət" mərkəzdə internetə açıq olan kompüterlər vasitəsilə vətəndaşların bütün növ elektron xidmətlərdən yararlana bilmək imkanlarının təmin edilməsi üçün nəzərdə tutulub. Xüsusilə, regionlarda müvafiq şəbəkənin genişləndirilməsi məqsədi ilə Sumqayıt "ASAN xidmət" mərkəzində 3 ədəd, Gəncə "ASAN xidmət" mərkəzində isə 4 ədəd özünəxidmət kiosklari quraşdırılıb.

Göstərdiyi elektron xidmətlərlə bağlı regionlarda fəaliyyəti ilə diqqəti çəkən mərkəzi icra hakimiyyəti orqanlarından biri də İqtisadiyyat və Sənaye Nazirliyidir. Nazirlik hesabat dövrü ərzində 59 rayonda göstərdiyi fəaliyyətlərlə bağlı təqdimatlar keçirib. Həmin təqdimatlardan biri "Nazirlik tərəfindən göstərilən elektron xidmətlər" mövzusunda olub.

Bununla yanaşı, yaradılmış elektron məlumat mənbələri (www.icazeler.gov.az, www.yoxlama.gov.az, www.biznesinfo.az) və digər elektron xidmətlər haqqında sahibkarları məlumatlandıraraq onların maarifləndirilməsi üçün nazirliyin təşkilatçılığı ilə Gəncədə, Şəmkirdə, Goranboyda, Qəbələdə, Bərdədə, Xızıda, Qusarda, Daşkəsəndə, Xaçmazda və Yardımlıda təqdimatlar edilib.

Vergilər nazirliyinin 11.07.2013-cü ildən göstərdiyi 50 növ elektron xidmətin hamısından bütün regional xidmət mərkəzlərində istifadə olunub.

## 8-ci istiqamət:
## Mineral ehtiyatların hasilatı ilə məşğul olan sənaye sahələrində şəffaflığın artırılması

## ORTA BAL: 1.66

***8.1 Mineral Ehtiyatların Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsünün Azərbaycanda davamlı tətbiqi və inkişafı üçün Azərbaycan Respublikası hökumətinin ölkədə mineral ehtiyatların hasilatı ilə məşğul olan yerli və xarici şirkətlər, habelə vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığının davam etdirilməsi***

**Məsul dövlət orqanları:** Dövlət Neft Fondu
**İcra müddəti:** 2012-2015-ci illər

**Ölçmək üçün indikatorlar:** Mineral Ehtiyatların Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsünün Azərbaycanda davamlı tətbiqi və inkişafı üçün Azərbaycan Respublikası hökumətinin ölkədə mineral ehtiyatların hasilatı ilə məşğul olan yerli və xarici şirkətlər, habelə vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığının davam etdirilməsini təsdiq edən tədbirlərə dair faktlar

***Metodoloji əsas:***
*2- tədbirlər həyata keçirilib.*
*1 – tədbirlərin həyata keçirilməsinə hazırlıq aparılır.*
*0 – tədbirlər həyata keçirilməyib və heç bir hazırlıq da aparılmır.*

**İcra vəziyyəti**
**Monitorinq balı: 2**
*(Tədbirlər həyata keçirilmişdir)*

Azərbaycan Respublikası Dövlət Neft Fondunun 15 yanvar 2015-ci il tarixli məktubunda bildirilir ki, 2014-cü ildə Azərbaycanın hasilat şirkətləri, vətəndaş cəmiyyəti və hökumət nümayəndələrindən ibarət Çoxtərəfli Qrupun (ÇQ) 12 iclası baş

tutub, Azərbaycanın MHŞT Standartına keçidi ilə əlaqədar dəyişiklik və yeniliklər haqqında yerli və xarici hasilat şirkətlərinə və QHT koalisiyası üzvlərinə seminar keçirilib, Azərbaycanın MHŞT-yə qoşulmasının 10 illik yubileyi münasibətilə "Azərbaycan MHŞT daxilində 10 il. Tarixdən yeni pilləyə" adlı beynəlxalq konfrans təşkil edilib.

Atılmış ən vacib addımlardan biri MHŞT üzrə Komissiya, ölkədə hasilat sənayesində fəaliyyət göstərən xarici və yerli şirkətlər, "Mədən Sənayesində Şəffaflığın Artırılması" QHT Koalisiyası arasında "Mədən Hasilatı üzrə Şəffaflıq Təşəbbüsünün Azərbaycan Respublikasında tətbiqinə dair qarşılıqlı anlaşma haqqında" yeni Memorandumun imzalanması olub.

Bununla yanaşı, 1 yanvar 2015-ci il tarixində Azərbaycanda MHŞT üzrə Qiymətləndirmə prosesinin başlanılması ilə əlaqədar 24 dekabr tarixində MHŞT tərəflərinə MHŞT üzrə "Qiymətləndirmə öncəsi seminar" keçirilib.

Eyni zamanda, Azərbaycanda vətəndaş cəmiyyətinin MSHT prosesində iştirakı ilə bağlı yaranmış çətinliklərlə əlaqədar Beynəlxalq İdarə Heyətinin qərarı ilə 19-22 sentyabr 2015-ci il tarixdə Bakıya beynəlxalq səviyyəli fakt araşdırıcı missiya göndərilib. Missiya Bakıda İctimai Birliklərin "Mədən sənayesində şəffaflığın artırılması" (MSŞA) Koalisiyasının üzvləri, digər vətəndaş cəmiyyəti nümayəndələri, diplomatik korpusun təmsilçiləri və Çoxtərəfli Qrup üzvləri ilə görüşlər keçirib və müzakirələr aparıb.

Beynəlxalq səviyyəli fakt araşdırıcı missiyanın Bakı səfərindən sonra hazırladığı hesabatın tapıntıları Beynəlxalq İdarə Heyətinin 14-15 oktyabr 2015-ci il tarixli iclasında müzakirə olunub və İdarə Heyəti razılaşıb ki, Azərbaycanda vətəndaş

cəmiyyətinin vəziyyəti qəbuledilməzdir. Vətəndaş cəmiyyətinin hazırki durumunda MHŞT-nin tətbiqi həyata keçirilə bilməz.

İdarə Heyətinin vətəndaş cəmiyyətini təmsil edən bütün üzvləri MHŞT Tələbi 1.7.a-ya uyğun olaraq Azərbaycanın MHŞT üzvlüyünün dərhal müvəqqəti dayandırılmasına çağırıb. İdarə Heyəti müzakirələri Tələb 1.3 (a-e)-yə əməl olunmadığı nəticəsinə gələn fakt araşdırıcı missiyanın hesabatı əsasında aparıb. MHŞT üzrə İdarə Heyəti Azərbaycan hökumətini vətəndaş cəmiyyəti ilə işləməyə və vətəndaş cəmiyyətinin MHŞT-də iştirakı üçün əlverişli şəraitin yaradılmasına hazır olduğunu yenidən təsdiq etməyə çağırıb.

MHŞT üzrə Katiblik, həmçinin, tələb edib ki, Azərbaycan hökuməti və MHŞT üzrə Çoxtərəfli qrup vətəndaş cəmiyyətinin MHŞT çərçivəsində öz rolunu həyata keçirməsini və MHŞT üzrə İş planında nəzərdə tutulmuş tapşırıqları yerinə yetirməsini təmin etsin, o cümlədən MHŞT prosesinə tam cəlb edilmiş vətəndaş cəmiyyəti nümayəndələrinin aşağıdakıları edə bilməsinə şərait yaratsın:

1. **MHŞT Koalisiyasının vəzifələri də daxil olmaqla, vəzifələri icra etmək üçün lazım olan maliyyəyə sərbəst çıxış və istifadə.** Xüsusilə, hökumət MHŞT üzrə Koalisiya, onun üzvləri və işçilərinin bank hesablarına sərbəst çıxışını, MHŞT prosesi və təbii resursların idarə edilməsi üzrə fəaliyyətlər üçün qrant qeydiyyatından keçə bilməsini təmin etməlidir. Həmçinin, təbii resursların idarə edilməsi üzrə QHT əməliyyatlarının məhdudlaşdırılmasına yol verilməməlidir.

2. **MHŞT prosesinə tam cəlb olunmuş vətəndaş cəmiyyəti nümayəndələrinin MHŞT prosesi haqqında sərbəst danışması və təbii resursların idarə olunması haqqında fikirlərini heç bir**

**təzyiq və təqib qorxusu olmadan söyləməsi.** Xüsusilə, hökumət Koalisiyanın MHŞT ilə bağlı ictimai tədbirləri üçün şərait yaratmalı və MHŞT və təbii resursların idarə edilməsi ilə əlaqədar ictimai məlumatlılığın artırılması üzrə Koalisiya tərəfindən fəaliyyətlərin və debatların təşkilini təmin etməlidir.

3. **MHŞT prosesi və təbii resursların idarə olunması ilə bağlı təlimlərin, görüşlərin və tədbirlərin keçirilməsi.** Beynəlxalq İdarə heyəti qərar verdi ki, 2013-cü il üzrə MHŞT Hesabatı əsas götürülərək MHŞT tələblərinə uyğunluqla yanaşı, yuxarıdakı fəaliyyətlər üzrə irəliləyiş MHŞT Standartına uyğun olaraq 1 yanvar 2015-ci il tarixindən başlanması və ən geci fevral ayının əvvəli (MHŞT üzrə İdarə Heyətinin fevral iclasında müzakirə edə bilməsi üçün) yekunlaşması nəzərdə tutulan erkən Qiymətləndirmə ilə qiymətləndirilsin.

Əgər Qiymətləndirmə Azərbaycanın bütün MHŞT tələblərini qarşıladığı qənaətinə gələrsə, Azərbaycan MHŞT tələblərinin 1.6.b. tələbinə uyğun olaraq tamhüquqlu üzvlüyünü qoruyacaq. Əgər Qiymətləndirmə o nəticəyə gəlsə ki, Azərbaycan MHŞT-nin tamhüquqlu üzv statusunu qorumaq üçün əhəmiyyətli irəliləyiş əldə edib, ancaq bütün tələblər yerinə yetirilməyib, o zaman Azərbaycanın statusu 1.6.b. Tələbinə əsasən tamhüquqlu üzvlükdən namizəd ölkə statusuna endiriləcək. Əgər Qiymətləndirmə Azərbaycanın MHŞT-nin tətbiqinə dair əhəmiyyətli irəliləyiş əldə etmədiyi haqda nəticəyə gələrsə, Azərbaycan 1.6.b. Tələbinə uyğun olaraq üzvlükdən çıxarılacaq.

Əgər Qiymətləndirmə nəticəyə gəlsə ki, MHŞT-nin Prinsiplərinin və Tələblərinin əhəmiyyətli aspektlərinə açıq-aydın əməl olunmayıb, Azərbaycanın üzvlüyü 1.7.a. Tələbinə uyğun olaraq Beynəlxalq İdarə Heyəti tərəfindən müvəqqəti dayandırılacaq və ya Azərbaycan üzvlükdən çıxarılacaq.

Təklif olunub ki, yüksək səviyyəli missiya Bakıya yuxarıdakıları çatdırmağa kömək etmək üçün səfər edə bilər. 2014-cü il ərzində yüksək səviyyəli missiyanın Bakıya səfəri baş tutmayıb.

Eyni zamanda, İdarə Heyətinin qərarı ilə Azərbaycana MHŞT Standartına uyğun olaraq nəzərdə tutulan erkən Qiymətləndirmə 2015-ci ilin yanvar ayından başlayıb və təsdiq olunmuş qrafikə görə, Qiymətləndiricinin yekun hesabatının mart ayında təqdim edilməsi gözlənilir.

### *8.2 Azərbaycan Respublikası hökumətinin mədən sənayesində əldə etdiyi məcmu daxilolmalar barəsində hesabatların ictimaiyyətə mütəmadi açıqlanmasının davam etdirilməsi*

**Məsul dövlət orqanları:** Dövlət Neft Fondu
**İcra müddəti:** 2012-2015-ci illər

**Ölçmək üçün indikatorlar:** Azərbaycan Respublikası hökumətinin mədən sənayesində əldə etdiyi məcmu daxilolmalar barəsində hesabatların ictimaiyyətə mütəmadi açıqlanması faktları

***Metodoloji əsas:***
*2- informasiya açıqlanır*
*1 – informasiyanın açıqlanmasına hazırlıq işləri gedir.*
*0 – informasiya açıqlanmır və onunla bağlı hazırlıq işləri getmir.*

**İcra vəziyyəti**
**Monitorinq balı: 1**
*(İnformasiyanın açıqlanmasına hazırlıq işləri gedir)*

Azərbaycan Respublikası Dövlət Neft Fondunun və MHŞT üzrə Katibliyin internet səhifəsində yerləşdirilmiş 19 fevral 2015-

ci il tarixli 28-ci iclasın protokolundan çıxarışda göstərilir ki, növbəti hesabatlılıq ilində Auditor tərəfindən İlkin Hesabat hazırlanmasın və Auditor 23 fevral 2014-cü il tarixinədək Standarta uyğun yenilənmiş Şərtlər Toplusunu, hesabat formalarını və kontekstual məlumatların toplanma metodologiyasının yekun versiyasını Çoxtərəfli Qrupa (ÇQ) təqdim etsin. Bu işin müntəzəm davam etdirilməsi üçün ÇQ-nin qərarı ilə bütün tərəflərin təmsilçiliyi ilə işçi qrupu yaradılıb.

İşçi qrup qiymətləndirmə dövrü ərzində hesabatın kontekstual məlumatlar bölməsinin hazırlanması ilə məşğul olub, lakin 2014-cü il ərzində bu iş başa çatmayıb. 2014-cü il ərzində 18-ci hesabat ÇQ tərəfindən qəbul edilərək açıqlanmayıb.

İctimai Birliklərin MSŞA Koalisiyası 03 noyabr 2014-cü il tarixində 18-ci hesabatın ilkin layihəsinə (2013-cü il üzrə) və auditor şirkətinin 2013-cü il üzrə MHŞT hesabatlarının tutuşdurulmasına dair layihə hesabatına Rəy hazırlayıb və onu 03 noyabr 2014-cü il tarixində ÇQ-yə təqdim edib.

Azərbaycan Respublikası Dövlət Neft Fondunun 15 yanvar 2015-ci il tarixli məktubunda bildirilib ki, MHŞT Standartının tələblərinə uyğun hazırlanmış Azərbaycan Respublikası Hökumətinin mədən hasilatı sənayesində əldə etdiyi məcmu daxilolmaları barəsində növbəti (on səkkizinci) hesabatı (2013-cü il üzrə) və auditor şirkətinin 2013-cü il üzrə MHŞT hesabatlarının tutuşdurulmasına dair keçən illərlə müqaisədə daha geniş miqyasda məlumatları əks etdirən layihə hesabatı 3 oktyabr 2014-cü il tarixində ÇQ-yə təqdim olunub. Lakin həmin hesabatın yekun variantı hazır olmadığına görə, MSŞA Koalisiyanın rəyi yeniləşdirilməyib və ÇQ-də müzakirəyə çıxarılmayıb.

***8.3 Mineral Ehtiyatların Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsünün Azərbaycanda tətbiqi üzrə illik hesabatların açıqlanması***

**Məsul dövlət orqanları:** Dövlət Neft Fondu
**İcra müddəti:** 2012-2015-ci illər

**Ölçmək üçün indikatorlar:** Mineral Ehtiyatların Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsünün Azərbaycanda tətbiqi üzrə illik hesabatın nəşri faktları

*2 – Mineral Ehtiyatların Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsünün Azərbaycanda tətbiqi üzrə illik hesabat dərc edilmişdir.*
*1 – Mineral Ehtiyatların Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsünün Azərbaycanda tətbiqi üzrə illik hesabatın dərc edilməsinə hazırlıq gedir.*
*0 - Mineral Ehtiyatların Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsünün Azərbaycanda tətbiqi üzrə hesabat dərc edilmir və ona hazırlıq işləri görülmür.*

**İcra vəziyyəti**
**Monitorinq balı: 2**
*(Mineral Ehtiyatların Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsünün Azərbaycanda tətbiqi üzrə illik hesabat dərc edilib)*

Azərbaycan Respublikası Dövlət Neft Fondunun 15 yanvar 2015-ci il tarixli məktubunda bildirilmişdir ki, MHŞT-nin Azərbaycanda tətbiqi üzrə 2013-cü ili əhatə edən illik hesabat 29 iyun 2014-cü il tarixində açıqlanmışdır.

# III. NƏTICƏLƏR

1. **İkinci monitorinqdən aydın oldu ki, ümumilikdə Milli Fəaliyyət Planının icrası sahəsində mərkəzi icra hakimiyyəti orqanları tərəfindən görülən işlər qənaətbəxşdir: planda nəzərdə tutulan konkret addımlar atılıb.** Bunu MFP-nin istiqmətləri üzrə aparılan birinci (sentyabr 2012 – sentyabr 2013) və ikinci (sentyabr 2013-dekabr 2014) monitorinqin nəticələri də təsdiq edir.

   Monitorinq olunan 5 istiqamətin 3- üzrə nəticələr xeyli yaxşılaşıb, iki istiqamət üzrə orta bal 2 dəfə artıb.




2. **Ümumi nəticələri mənfiyə doğru dəyişdirən yerli icra hakimiyyəti orqanlarının fəaliyyətsizliyidir.** Monitorinq olunan 46 yerli icra hakimiyyəti orqanından yalnız 7-də informasiya

azadlığı üzrə məsul şəxs təyin olunub, 5-də informasiyaya əlçatanlıq məsələlərinin tənzimlənməsi üzrə daxili icraat qaydaları qəbul edilib, 4-də informasiya azadlığının təmin edilməsi məqsədi ilə məsul dövlət qulluqçuları üçün ətraflı təlimlər keçirilib. Yalnız birində ictimai şura yaradılıb.

Bundan əlavə, yalnız 3 yerli icra hakimiyyəti orqanında öz fəaliyyətini tənzimləyən rəhbər prinsiplər hazırlanıb ki, onlardan yalnız 1-i öz fəaliyyətini tənzimləyən qanunverici aktları sadə və anlaşıqlı dildə tərtib və dərc edib. Çox maraqlıdır ki, saytlarda fəaliyyətlərin işıqlandırılması baxımından ən acınacaqlı vəziyyət Bakı, Sumqayıt, Gəncə kimi iri şəhərlərdədir. Bu şəhərlərin saytlarında məlumatların yenilənmə intensivliyi təəssüf doğurmaya bilmir. Bu sahədə Binəqədi rayon icra hakimiyyətinin internet saytı əhatəliliyi və informasiya açıqlığı baxımından digərlərinə nümunə ola bilər. Adıçəkilən rayon istisna olmaqla heç bir yerli icra hakimiyyəti orqanının rəsmi internet səhifəsində elektron xidmətlər aktiv deyil.

3. **Dövlət qurumlarında informasiya azadlığı üzrə məsul şəxslə mətbuat katibinin vəzifə və səlahiyyət bölgüsünün sərhədləri məlum deyil.** Adətən, dövlət qurumlarında informasiya azadlığı üzrə məsul şəxs olaraq elə mətbuat katibləri təyin olunub, çox az sayda orqanlarda bu iş hüquqşünasa həvalə edilib. Dövlət qurumlarının demək olar ki, hamısında mətbuat katiblərinin vəzifə və funksiyalarını müəyyənləşdirən hüquqi normativ sənəd mövcud deyil və ya olsa da, əlçatan deyil. Buna görə də mətbuat katibi ilə informasiya azadlığı üzrə məsul şəxsin vəzifə və yerinə yetirdikləri funksiyalar baxımından fərqini müəyyənləşdirmək mümkün deyil. İnformasiya azadlığı üzrə məsul şəxsin fəaliyyətini əksər qurumlarda daxili icraat qaydaları tənzimləyir. Həmin qaydalar isə kiçik fərqlərlə "İnformasiya əldə etmək haqqında" qanunun müddəalarının təkrarıdır.

4. **Azərbaycan Respublikası Nazirlər Kabinetinin Azərbaycan Respublikası Milli Məclisi qarşısındakı illik hesabatlarında açıq hökumətin təşviqi və korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilmiş tədbirlər haqqında məlumatlara rast gəlinməyib.**

5. **Mərkəzi və yerli icra hakimiyyəti orqanlarının yanında ictimai şuraların yaradılması ilə bağlı MFP-də qoyulan müddət 2013-cü ildə başa çatsa da, şuraların yaradılması prosesi hələ də ləngiyir.** "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikasının 2013-cü il 22 noyabr tarixli 816-IVQ nömrəli Qanununun tətbiqi barəsində Azərbaycan Respublikası Prezidentinin 16 yanvar 2014-cü il tarixli Fərmanında fəaliyyətinə ictimai nəzarət ediləcək mərkəzi icra hakimiyyəti orqanları barəsində təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etmək üçün Nazirlər Kabinetinə 3 ay vaxt verilib. Lakin bir ildən artıq vaxt keçsə də, hansı mərkəzi icra hakimiyyəti orqanlarında ictimai şuraların yaradılması bəlli deyil.

6. **Dövlət orqanlarının fəaliyyətini tənzimləyən qanunverici aktların sadə və anlaşıqlı formada rəhbər prinsiplərin işlənilməsi ilə bağlı fəaliyyətlər aparılsa da, onun qəbul olunması ləngiyir.**

7. **Yerli icra hakimiyyəti orqanlarının internet saytları vahid formada olsa da, imkanları məhduddur.** Saytlarda xəbərlərin arxivləşdirilməsi üçün səhifə məhdudiyyəti qoyulub. Bu isə bəzi hallarda yerli icra strukturlarının cəmi 2-3 aylıq fəaliyyətinə dair məlumatların arxivləşməsinə imkan verir.
   Saytlarda axtarış rejimi yoxdur. Hesabat bölməsi nəzərdə tutulmayıb.

8. **40 dövlət proqramından yalnız 6-sı üzrə İnternet portal və ya məsul mərkəzi icra hakimiyyətinin saytında ayrıca bölmə yaradılıb.** Digər dövlət proqramların icrası ilə bağlı sistemləşdirilmiş məlumatların olmaması çətinlik yaradır.

9. **Azərbaycan Respublikasının İnsan hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Aparatının strukturunun təkmilləşdirilməsi həyata keçirilməyib.**
   İnformasiya azadlığı üzrə müvəkkilin aparatından rəsmi sorğuya verilən cavabdan aydın olur ki, "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinin icrasına nəzarətin həyata keçirilməsi məqsədi ilə Azərbaycan Respublikasının İnsan hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Aparatının strukturunun təkmilləşdirilməsilə bağlı təkliflər hazırlanıb Nazirlər Kabineti və Maliyyə Nazirliyinə göndərilsə də, hələ ki real addımlar atılmayıb.

10. **"Elektron xidmətlərin təkmilləşdirilməsi" istiqaməti üzrə qiymətləndirilən 6 fəaliyyətdən 4-ü maksimum bal alıb.** Digər iki istiqmətin hər biri üzrə isə ortadan yuxarı (3 ballıq sistemdə 2 bal) qiymətləndirmə qeydə alınıb.

11. MHŞT üzrə yeni standartların qəbulu və tətbiqi ilə əlaqədar olaraq hesabat dövründə şirkətlərdən dövlətə məcmu daxilolmalar barəsində illik hesabat ictimaiyyətə açıqlanmamışdır. Vətəndaş cəmiyyətinin fəaliyyətini tənzimləyən qanunvericilikdə olan dəyişiklik və əlavələr MHŞT prosesində onların iştirakına mənfi təsir göstərmişdir. Beləliklə də MHŞT-nin tətbiqində ictimai iştirakçılıq və hesabatlılıq sahəsində ictimai debatların təşkili imkanları hesabat dövründə məhdudlaşmışdır.

## IV. TƏKLİFLƏR

1. Fəaliyyətinə ictimai nəzarət olunan mərkəzi icra hakimiyyəti orqanları siyahısının təsdiqlənməsi tezləşdirilsin, mərkəzi və xüsusilə, yerli icra hakimiyyətlərinin yanında ictimai şuraların yaradılması işləri sürətləndirilsin.
2. Yerli icra hakimiyyətlərinin saytları təkmilləşdirilsin, serverlər gücləndirilsin.
3. Dövlət qurumlarında informasiya azadlığı üzrə məsul şəxslə mətbuat katibinin vəzifə və səlahiyyət bölgüsünün sərhədləri dəqiqləşdirilsin, paralellik aradan qaldırılsın.
4. Dövlət orqanlarının, xüsusilə də yerli icra hakimiyyəti orqanlarının AHT və onun tələblərinə dair məlumatlılığı artırılmalıdır. Monitorinq göstərdi ki, onların əksəriyyəti dövlətin öz üzərinə götürdüyü öhdəliklər barəsində məlumatsızdır, və ya onların icrasında öz məsuliyyətini bilmir.
5. Dövlət orqanlarının internet saytlarının "Dövlət orqanlarının İnternet informasiya resurslarının yaradılması və idarə edilməsi qaydaları"nda nəzərdə tutulan vahid formata uyğunlaşdırılması işi sürətləndirilməlidir. Bu, dövlət orqanlarının illik hesabatlarının maliyyə vəsaitlərindən istifadəni əhatə etməklə vahid prinsiplər əsasında hazırlanması, hesabatların və öz fəaliyyətləri barəsində məlumatların xarakterinin, həmçinin saytlarda yerləşdirilməsi üçün müntəzəmlik anlayışının aydınlaşmasına imkan verər.
6. Dövlət proqramları üzrə internet resurslarının yaradılmasının vahid prinsipləri hazırlanmalı, bütün əlaqələndirici dövlət orqanlarının həmin prinsiplərə əməl etməsi təmin olunmalıdır.
7. Ölkədə insan hüquqları üzrə müvəkkilin aparatında informasiya azadlığı üzrə xüsusi şöbənin ştat vahidləri qısa müddətdə təsdiqlənməli və işini qurması üçün digər zəruri addımlar atılmalıdır.
8. Mərkəzi icra hakimiyyəti orqanlarının heç də hamısının saytında hesabatlar ayrıca bölməyə yerləşdirilməyib. Yerli icra

hakimiyyətlərində isə bu sahədə vəziyyət çox acınacaqlıdır. Yaxşı olardı ki, hesabatlar şəffaflığı təmin etmək məqsədilə saytda, xüsusi bölmədə müxtəlif formatlarda (doc, pdf və s.) yerləşdirilsin və ana səhifədə tez gözə çarpsın.

**9.** MHŞT-nin tətbiqini tənzimləyən hüquqi bazanın formalaşdırılması, MHŞT Katibliyinə müstəqillik statusunun verilməsi, Çoxtərəfli Qrup çərçivəsində olan müzakirələrdə məxfiliyin aradan qaldırılması, eləcə də İctimai Birliklərin " Mədən sənayesində şəffaflığın artırılması" Koalisiyasının üzvü olan vətəndaş cəmiyyəti institutlarının maliyyələşmə imkanlarının və qrant qeydiyyatının asanlaşdırılması bu prosesdə irəliləyişin əldə edilməsinə stimul verə bilər.

## V. AÇIQ HÖKUMƏTIN TƏŞVIQI ÜZRƏ MILLI FƏALIYYƏT PLANININ I MONITORINQININ NƏTICƏSI OLARAQ VƏTƏNDAŞ CƏMIYYƏTI TƏRƏFINDƏN IRƏLI SÜRÜLMÜŞ TÖVSIYƏLƏRIN ICRA VƏZIYYƏTI

### 1. Açıq Hökumətin Təşviqi üzrə Milli Fəaliyyət Planının təkmilləşdirilməsi üzrə tövsiyələr

- 3 illik Fəaliyyət Planı əsasında ümumiləşdirilmiş illik Fəaliyyət Planlarını hazırlamaqla AHT MFP mütəmadi surətdə yenilənməsi; (təmin olunmayıb)
- Fəaliyyət Planına öhdəliklər çərçivəsində hər bir əsas və köməkçi fəaliyyət növünün icrasını ölçmək üçün nəticə indikatorlarının əlavə olunması; (təmin olunmayıb)
- Fəaliyyət Planının icrasına və nəzarət edilməsinə daha geniş vətəndaş cəmiyyəti icmasının cəlb olunmasına görə tam cavabdeh olan dövlət qurumunun institusional potensialının artırılması; (təmin olunmayıb)
- Fəaliyyət Planından irəli gələn öhdəliklərin nəticələrini qiymətləndirmək məqsədi ilə Fəaliyyət Planının geniş monitorinqinin aparılması və bunun üçün həmin monitorinqə yardım edə biləcək xüsusi məlumatlara, təfsilatlı hesabatlara çıxış imkanlarının artırılması (qismən təmin olunub).

### 2. Vətəndaş cəmiyyətinin Açıq Hökumətə cəlb olunmasının gücləndirilməsinə və genişləndirilməsinə dair tövsiyələr

- Aidiyyatı vətəndaş cəmiyyətn təşkilatlarının səfərbər olunaraq AHT MFP icrasına ictimai dəstək göstərməsi məqsədilə şəbəkələnməsi, onların Açıq Hökumət Təşəbbüsünün reallaşdırıldığı bütün səviyyələrdə - Fəaliyyət Planının hazırlanması, tətbiqi, monitorinqi və qiymətləndirilməsində - iştirakı və nəhayət ixtisaslaşdıırlmış vətəndaş cəmiyyətinin əsas

təmsilçilərinin təmsil olunduğu **iki tərəfli dialoq platformasının** yaradılması; (təmin olunmayıb)

- Həm beynəlxalq, həm də regional miqyasda (xüsusən, bu sahədə böyük irəliləyişlərə nail olmuş MDB ölkələri, yəni Gürcüstan və Moldova ilə) real əməkdaşlığın əldə olunması; (təmin olunmayıb)
- Açıq Hökumətin təşviqi ilə əlaqədar vətəndaş cəmiyyətinin fəaliyyətinin icrası üçün müvafiq mühitin yaradılması; (təmin olunmayıb)
- Hökumətin real tərəfdaşları olmaq üçün vətəndaş cəmiyyəti təşkilatlarının resurslarından istifadənin genişləndirilməsi; (təmin olunmayıb)
- Qərarların qəbul olunması prosesində vətəndaş cəmiyyətinin iştirakını genişləndirəcək ümumi dialoq platformasının yaradılması. "Açıq qapı" vətəndaş cəmiyyəti forumlarının ümumi modeli işlənib hazırlanması. Bundan əlavə, həmin forumların mütəmadiliyi və ümumi strukturunun (o cümlədən, həmin forumları keçirən agentliklərin məsuliyyətinin) müəyyən olunması. (təmin olunmayıb)

**3. Fəaliyyət Planı çərçivəsində icra edilməli olan xüsusi öhdəliklərə (əsas və köməkçi fəaliyyət növlərinə) dair tövsiyələr**

- "Dövlət orqanlarının internet məlumat mənbələrinin yaradılması və saxlanması qaydaları"na müvafiq olaraq, vahid formatda dövlət orqanlarının internet səhifələrinin yaradılması və tənzimlənməsi prosesinin sürətləndirilməsi (Bu fəaliyyətin uğurla icra olunması dövlət orqanlarına ümumi prinsiplər əsasında illik hesabatları işləyib hazırlamağa, o cümlədən öz hesabatlarını internet səhifələrinə yükləmələrinə və yeniləşdirmələrinə kömək edəcək. Dövlət proqramı vasitəsi ilə internet resurslarının yaradılması üzrə vahid prinsiplər işlənib hazırlanmalı və bütün koordinasiyaedici dövlət agentlikləri həmin prinsiplərə riayət etməlidirlər); (qismən təmin olunub)

**Yerli icra hakimiyyəti orqanlarının saytları vahid standart əsasında hazırlansa da, mərkəzi orqanlarda bu, çox aşağı səviyyədədir. Bütün mərkəzi orqanların internet resurslarında ümumi olan bəzi bölümlər var: qanunvericilik, struktur, dövlət proqramları, fəaliyyət, ictimaiyyətlə əlaqələr, beynəlxalq əlaqələr və sair. Lakin bu, sistemli və vahid strukturun formalaşması üçün yetərli deyil. Bir çox mərkəzi İH orqanlarında hesabat bölümü, ümumiyyətlə, yoxdur. Bu baxımdan, mərkəzi İH orqanları üçün də vahid standartların formalaşması çox vacibdir.**

- Müstəqil təşkilat qismində Məlumat Azadlığı üzrə Səlahiyyətli Nümayəndəliyin (Ombudsman İnstitutunun) yaradılması (hazırda mövcud olan Ombudsman İnstitutunun nüfuzu və təsiretmə mexanizmi olmadığına görə, o, məlumat azadlığının təmin olunması sahəsində dövlət agentliklərinə nəzarət edə bilmir.); (təmin olunmayıb)

**Bu sahədə heç bir irəliləyiş qeydə alınmayıb. Nəinki müstəqil institut, heç İnsan hüquqları üzrə müvəkkilin aparatında nəzərdə tutulan İnformasiya azadlığı şöbəsi belə formalaşdırılmayıb.**

- Mərkəzi icra orqanları tərəfindən göstərilən xidmətlərlə əlaqədar ictimai təqdimatların təşkil olunmasından boyun qaçırılmasının əsas səbəblərinin araşdırılması və hər bir dövlət orqanı tərəfindən bu cür təqdimatların keçirilməsi ilə əlaqədar öhdəlikləri əhatə edən periodik hesabatlar tələb edilməsi; (məlumatsızıq)

- Vergi və rüsumların elektron sistemlər vasitəsi ilə ödənilməsi, eləcə də vətəndaşların bu imkanlar barəsində məlumatlandırılması üçün texniki vasitələrin genişləndirilməsi (əhali üçün əlverişli

imkanların yaradıması) yönümündə işlərin görülməsi (Bunun üçün regionlardakı dövlət müəssisələrində çalışanlar və onların xidmətlərindən istifadə edən vətəndaşlar cəlb olunmaqla informasiya texnologiyalarının imkanları barəsində biliklərin artırılması üçün əlverişli texniki mühit yaradılmalıdır. Bundan əlavə, onların müasir informasiya texnologiyalarına çıxışı asanlaşdırılmalıdır.); (təmin olunub)

- Dövlət və yerli büdcənin inkişafına və icrasına ictimai nəzarət mexanizmləri və prosedurlarının tətbiqi, o cümlədən təsdiqlənmiş büdcə proqnozları əsasında vəsaitlərin xərclənməsinin sosial auditinin aparılması və bələdiyyələrin ictimaiyyət qarşısında maliyyə hesabatlarının vaxtlı-vaxtında təqdimatı və ictimaiyyətin iştirakı ilə təsdiqlənməsinə dair qanunvericiliyə təkliflərin hazırlanması (qanunlar elə olmalıdır ki, həmin fəaliyyət növləri ilə əlaqədar agentliklərin və fiziki şəxslərin məsuliyyəti aydın şəkildə müəyyənləşdirilmiş və başa düşülmüş olsun); (qismən təmin olunub)

- Dövlət maliyyə nəzarəti təşkilatlarının hüquqlarının dəqiqləşdirilməsi üçün onların əsasnamələrində müvafiq əlavə və dəyişikliklərin aparılması və bununla yanaşı "Dövlət maliyyə nəzarəti mexanizmini icra edən agentliklərin məsuliyyəti" haqqında qaydalar toplusunun hazırlanması; (təmin olunmayıb)

- "Maliyyə nəzarəti" haqqında qanun layihəsinin qəbulunun surətləndirilməsi və bu sənəd təsdiqləndikdən sonra onun həm Bakıda, həm də regionlarda ictimai müzakirələrinin təşkil olunması; (qəbul olunmayıb)

- İllik fəaliyyəti təsvir edən, eləcə də dövlət maliyyə nəzarəti agentliklərinin ictimai resurslarından necə istifadə olunduğunu əks etdirən hesabatların, onların maliyyə nəzarəti üzrə fəaliyyətini

xarakterizə edən məlumatlarla birlikdə internet resurslarında yerləşdirilməsi. (qismən təmin olunub)

**Ancaq təəssüf ki, belə hesabatlarda heç bir dövlət orqanı maliyyə fəaliyyətinə dair hər hansı məlumat açıqlamır.**

- Dövlət təşkilatlarının illik hesabatlarının geniş ictimaiyyət üçün açıq olması; (qismən təmin olunub)

**Çoxlu sayda dövlət orqanı hazırladığı hesabatları internet saytında yerləşdirir. Lakin bu hesabatlardan həmin təşkilatların fəaliyyətinə dair dolğun məlumat almaq mümkün deyil, çünki onlar çox səthi və ümumi hazırlanır. Yerli İH-lərin çox azında hesabat ayrıca sayta yerləşdirilib. Hətta bəzən böyük bir İH orqanının 1 illik hesabatı bir neçə cümlədən ibarət olur. Məsələn, Sumqayıt şəhər icra hakimiyyətinin saytında 2014-cü ilin hesabatı barəsində cəmi 1 cümləlik məlumat yerləşdirilib. (http://www.sumqayit-ih.gov.az/news/73.html) Hesabatın özü isə ümumiyyətlə, sayta yerləşdirilməyib.**

- Dövlət büdcəsi və müvafiq qanun layihələri Azərbaycan Respublikası Milli Məclisinə təqdim edilməzdən əvvəl tam şəkildə internetdə yerləşdirilməsi və eyni zamanda bununla əlaqədar ictimai müzakirələr və dinləmələrin təşkil edilməsi. (qismən təmin olunub)

**Bu məsələdə əsas problem dövlət büdcəsinin müzakirəsindən öncə açıqlanan sənədin tam yetərli olmaması və ictimai müzakirə və dinləmələrin keçirilməməsidir.**

**ƏLAVƏ 1.**

**Azərbaycan Respublikası Prezidentinin**
**2012-ci il 5 sentyabr tarixli Sərəncamı ilə**
**təsdiq edilmişdir**

# Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı

*Azərbaycan Respublikasında dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılması, hesabatlılığın təmin edilməsi, ictimaiyyətin iştirakının genişləndirilməsi, yeni texnologiyaların tətbiqi əsas prinsiplərdir. Dövlət orqanlarının fəaliyyətinin müasir standartlara uyğun təkmilləşdirilməsi məqsədi ilə 2007-2011-ci illərdə "Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya" icra edilmişdir. Strategiyada həmçinin açıq hökumət prinsiplərinin tətbiqi üzrə mühüm tədbirlər müəyyən edilmişdir. Azərbaycan Respublikası düzgün idarəçiliyin təşviqi üzrə bütün beynəlxalq təşəbbüslərə qoşulmuşdur.*

*Şəffaflığın artırılması və açıq hökumətin təşviqi ilə bağlı fəaliyyətin təkmilləşdirilməsi, bu sahədə beynəlxalq təcrübənin mübadiləsi və beynəlxalq səylərə öz töhfəsini verə bilmək üçün ölkəmiz 2011-ci ildə Açıq Hökumət Tərəfdaşlığına qoşulmuşdur. Dövlət orqanlarının fəaliyyətində şəffaflığın və açıq hökumət prinsiplərinin tətbiqi üçün, əsasən, aşağıdakı tədbirlər görülmüşdür:*

**İnformasiya azadlığının təmin edilməsi sahəsində** 2005-ci ildə "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Qanunun icrasına nəzarət Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə

Müvəkkilinə (Ombudsmana) həvalə edilmişdir. “Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya” çərçivəsində informasiya əldə edilməsinin asanlaşdırılması üçün praktiki işlər görülmüşdür. Dövlət orqanları tərəfindən informasiyanın proaktiv formada ictimaiyyətə təqdim edilməsi ilə bağlı tədbirlər müəyyən edilmişdir.

**Elektron xidmətlərin təşkili sahəsində** 2010-cu ildə ölkədə ikinci “Elektron Azərbaycan” dövlət proqramı qəbul edilmişdir. 2011-ci il mayın 23-də “Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanı imzalanmışdır. Fərmana əsasən, dövlət orqanları öz fəaliyyət istiqamətlərinə uyğun olaraq bütün sahələrdə elektron xidmətlər təşkil etmişlər. Elektron xidmətlərin “bir pəncərə” prinsipi əsasında təşkilinin təmin edilməsi məqsədi ilə www.e-gov.az vahid elektron hökumət portalı yaradılmışdır. “Bir pəncərə” prinsipinin tətbiqi sahəsində 2008-ci ildən etibarən sahibkarlıq subyektlərinin qeydiyyatı “bir pəncərə” prinsipinə uyğun həyata keçirilir. Bunun nəticəsində kommersiya hüquqi şəxslərin qeydiyyat (biznesə başlama) prosedurlarının sayı 13-dən 3-dək, müddəti isə 53 gündən 3 günədək, təqdim edilməli olan sənədlərin sayı 5 dəfədən çox azaldılmışdır.

**Biznesə başlama sahəsində** islahatlara görə Azərbaycan Respublikası Dünya Bankının “Doing Business-2009” hesabatında ən islahatçı dövlət kimi göstərilmişdir. 2011-ci il iyunun 1-dən etibarən fiziki şəxslərin, 2012-ci ilin fevral ayından etibarən hüquqi şəxslərin elektron qaydada qeydiyyatına başlanılmışdır. Həmçinin 2008-ci ildən dövlət sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin yoxlanılmasında, 2009-cu ildən miqrasiya proseslərinin idarə olunmasında, 2011-ci

ildən idxal edilən nəqliyyat vasitələrinin rəsmiləşdirilməsində "bir pəncərə" prinsipi tətbiq edilir.

Dövlət orqanları tərəfindən əhaliyə bütün xidmətlərin vahid məkandan, daha keyfiyyətli və rahat həyata keçirilməsi məqsədi ilə 2012-ci ilin iyul ayında Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi təsis edilmişdir və bu qurumun nəzdində "ASAN" xidmət mərkəzləri fəaliyyət göstərəcəkdir.

**Mineral Ehtiyatların Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsünün (MHŞT) tətbiqi sahəsində** Azərbaycan Respublikası 2003-cü ildən "Mineral Ehtiyatların Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsü"nə (MHŞT) qoşulmuş və təşəbbüsün icrası üzrə xüsusi hökumət komissiyası yaradılmışdır. Təşəbbüsün tətbiqi mexanizmi hökumət komissiyası, mədən hasilatı ilə məşğul olan yerli və xarici şirkətlər və Mədən Sənayesində Şəffaflığın Artırılması üzrə qeyri-hökumət təşkilatlarının Koalisiyası tərəfindən müəyyənləşdirilmiş və 2004-cü ildə Təşəbbüsün həyata keçirilməsinə dair Qarşılıqlı Anlaşma Memorandumu imzalanmışdır. 2007-ci ildə Azərbaycan Mineral Ehtiyatların Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsü üzrə namizəd statusunu almış, 2009-cu ildə həmin qurumun tamhüquqlu üzvü statusunu alan ilk ölkə olmuşdur. Təşəbbüsün icrası üzrə əldə etdiyi nailiyyətlərə görə 2007-ci ildə Azərbaycan Respublikasının Dövlət Neft Fondu "Dövlət qulluğunda şəffaflığın, cavabdehliyin və məsuliyyətin artırılması" üzrə BMT-nin "Dövlət Qulluğu Mükafatı" ilə təltif edilmişdir. 2009-cu ildə "Mineral Ehtiyatların Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsü mükafatı" Azərbaycana təqdim edilmişdir.

**Vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlıq və**

**ictimaiyyətin iştirakının təmin edilməsi sahəsində** Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası yanında fəaliyyət göstərən işçi qruplarda qeyri-hökumət təşkilatlarının üzvlüyü təmin edilmişdir. 2005-ci ildə Korrupsiyaya qarşı mübarizə aparan qeyri-hökumət təşkilatlarının Məlumat və İnformasiya Şəbəkəsi təsis edilmişdir. Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya Şəbəkəyə üzv olmuşdur. Şəbəkə korrupsiyaya qarşı mübarizə və şəffaflığın artırılması ilə əlaqədar bütün qanunvericilik layihələri üzrə ictimai dinləmələr keçirmişdir. 2004-cü ildən Mineral Ehtiyatların Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsünün icrası məqsədi ilə Qeyri-Hökumət Təşkilatlarının Mədən Sənayesində Şəffaflığın Artırılması Koalisiyası yaradılmışdır.

**Şəffaflığın artırılması və açıq hökumətin təşviqi sahəsində aşağıdakı tədbirlərin görülməsi təmin ediləcəkdir:**

**1. İnformasiya əldə edilməsinin asanlaşdırılması**
Görüləcək işlər və nəticə indikatorları

**1.1** Dövlət qurumlarında informasiya azadlığı üzrə məsul şəxslərin müəyyən edilməsi, informasiya azadlığı ilə bağlı daxili icraat qaydalarının qəbul edilməsi və bu barədə ictimaiyyətin məlumatlandırılması
**İcra:** mərkəzi və yerli icra hakimiyyəti orqanları – 2012-2014-cü illər

**1.2** İnformasiya azadlığının təmin edilməsi məqsədi ilə məsul dövlət qulluqçuları üçün ətraflı təlimlər keçirilməsi
**İcra:** mərkəzi və yerli icra hakimiyyəti orqanları – 2012-2014-cü illər

**1.3** "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinin icrasına nəzarətin həyata keçirilməsi məqsədi ilə Azərbaycan Respublikasının İnsan hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Aparatının strukturunun təkmilləşdirilməsi, aidiyyəti əməkdaşların ixtisaslaşmış təlimlərə cəlb edilməsi.
**İcra:** İnsan hüquqları üzrə Müvəkkil (Ombudsman) – 2013-2014-cü illər

**2. Dövlət orqanlarının öz fəaliyyətfləri barəsində ictimaiyyətə müntəzəm məlumat verməsi**
**Görüləcək işlər və nəticə indikatorları**

**2.1** Dövlət orqanlarının öz fəaliyyətləri barəsində məlumatları mütəmadi, yenilənmiş əsaslarla internet səhifələrində yerləşdirməsi
**İcra:** mərkəzi və yerli icra hakimiyyəti orqanları –mütəmadi

**2.2** Dövlət orqanlarının öz fəaliyyətləri barəsində illik məruzələr tərtib etməsi və internet səhifələrində açıqlaması
**İcra:** mərkəzi və yerli icra hakimiyyəti orqanları – 2012-2015-ci illər

**2.3** Dövlət orqanlarının öz fəaliyyətləri barəsində mətbuat konfransları və ictimaiyyətlə birbaşa ünsiyyət formasında tədbirlər keçirməsi
**İcra:** mərkəzi və yerli icra hakimiyyəti orqanları – 2012-2015-ci illər

**2.4** Dövlət orqanlarının fəaliyyətlərini tənzimləyən qanunvericilik aktlarının anlaşılan sadə dildə yazılmış versiyasının, bələdçi qaydalarının tərtib edilməsi və bu məlumatların vətəndaşlar arasında təşviq edilməsi

**İcra:** mərkəzi və yerli icra hakimiyyəti orqanları – mütəmadi

**2.5** Dövlət proqramlarının əhatə etdiyi sahələr üzrə internet portallarının yaradılması
**İcra:** mərkəzi icra hakimiyyəti orqanları – 2012-2014-cü illər

**2.6** Dövlət orqanlarının internet səhifələrinin müasir standartlara uyğun olaraq vahid nümunəvi formasının və minimum şərtlərinin müəyyən edilməsi
**İcra:** Nazirlər Kabineti, Xüsusi Dövlət Mühafizə Xidməti, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya - 2013-cü il

**2.7** Azərbaycan Respublikası Nazirlər Kabinetinin Azərbaycan Respublikasının Milli Məclisi qarşısındakı illik hesabatlarında açıq hökumətin təşviqi və korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilmiş tədbirlər haqqında məlumat verməsi
**İcra:** Nazirlər Kabineti -2012-2015-ci illər

**3. Normativ hüquqi aktların vahid elektron bazasının fəaliyyətinin təkmilləşdirilməsi**
**Görüləcək işlər və nəticə indikatorları:**

**3.1** Rəsmi hüquqi istinad mənbəyi olan Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinin elektron variantının mütəmadi yenilənməsi və elektron bazanın daim işlək vəziyyətdə saxlanılması
**İcra:** Ədliyyə Nazirliyi – mütəmadi

**4. Dövlət orqanlarının fəaliyyətində ictimaiyyətin iştirakının genişləndirilməsi**
**Görüləcək işlər və nəticə indikatorları:**

**4.1** Dövlət orqanları tərəfindən ictimai əhəmiyyət kəsb edən qanun layihələrinin hazırlanması prosesinə vətəndaş cəmiyyəti nümayəndələrinin cəlb edilməsi, ictimai dinləmələrin keçirilməsi
**İcra:** mərkəzi icra hakimiyyəti orqanları – mütəmadi

**4.2** Əhaliyə xidmət göstərən dövlət orqanları tərəfindən vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın təkmilləşdirilməsi üçün müvafiq şuraların və ya əməkdaşlıq şəbəkələrinin yaradılması
**İcra:** mərkəzi və yerli icra hakimiyyəti orqanları – 2012-2013-cü illər

**4.3** İctimai maraq kəsb edən qərarların qəbul edilməsi prosesində ictimaiyyətin iştirakını genişləndirmək vasitəsi kimi internet səhifələrindən istifadə edilməsi (vətəndaşların təklif və rəylərinin qəbul edilməsi, müzakirələrin təşkil edilməsi, interaktiv sual-cavab bölmələrinin yaradılması və s.)
**İcra:** mərkəzi və yerli icra hakimiyyəti orqanları – mütəmadi

**4.4** Dövlət orqanları tərəfindən "Açıq qapı" vətəndaş forumlarının keçirilməsi
**İcra**: mərkəzi və yerli icra hakimiyyəti orqanları – mütəmadi

**5. Elektron xidmətlərin təkmilləşdirilməsi**
**Görüləcək işlər və nəticə indikatorları:**

**5.1** Elektron xidmətlər göstərilməsi üzrə qiymətləndirmənin həyata keçirilməsi və ictimaiyyətə açıqlanması
**İcra**: Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi – mütəmadi

**5.2** Dövlət orqanlarının öz səlahiyyətlərinə uyğun olaraq həyata keçirdikləri elektron xidmətlər barəsində ildə bir dəfədən az olmayaraq ictimai təqdimatlar keçirməsi
**İcra:** mərkəzi icra hakimiyyəti orqanları – 2013-2015-ci illər

**5.3** Dövlət orqanları arasında elektron informasiya dövriyyəsinin təmin edilməsi məqsədi ilə vahid sistemin yaradılması
**İcra:** Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, Xüsusi Dövlət Mühafizə Xidməti – 2013-2014-cü illər

**5.4** Rüsumların, vergilərin, inzibati cərimələrin, kommunal xərclərin və digər inzibati ödənişlərin elektron qaydada ödənilməsinin təkmilləşdirilməsi
**İcra:** mərkəzi icra hakimiyyəti orqanları, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi – 2013-2014-cü illər

**5.5** Regionlarda əhalinin elektron xidmətlərdən istifadə imkanlarının artırılması üzrə tədbirlərin həyata keçirilməsi
**İcra:** mərkəzi icra hakimiyyəti orqanları, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi – 2013-2014-cü illər

**6. Maliyyə nəzarətini həyata keçirən orqanların fəaliyyətində şəffaflığın artırılması**
**Görüləcək işlər və nəticə indikatorları:**

**6.1** Dövlət maliyyə nəzarətini həyata keçirən orqanların səlahiyyətlərinin dəqiqləşdirilməsi və maliyyə nəzarəti üzrə daha

təkmil hüquqi baza təmin etmək üçün maliyyə nəzarəti haqqında qanun layihəsinin hazırlanması
**İcra:** Nazirlər Kabineti, Hesablama Palatası, Maliyyə Nazirliyi, Vergilər Nazirliyi - 2013-2014-cü illər

**6.2** Maliyyə nəzarəti orqanlarının hesabatlılığının artırılması və həmin orqanlar tərəfindən maliyyə nəzarətinin nəticələri barəsində təhlillərin və statistik məlumatların ictimaiyyətə təqdim edilməsi
**İcra:** Nazirlər Kabineti, Hesablama Palatası, Maliyyə Nazirliyi, Vergilər Nazirliyi - 2013-2015-ci illər

**6.3** Maliyyə nəzarətində informasiya texnologiyalarının tətbiqi və elektron nəzarət ("e-nəzarət") sisteminin yaradılması
**İcra:** Nazirlər Kabineti, Hesablama Palatası, Maliyyə Nazirliyi, Vergilər Nazirliyi - 2013-2014-cü illər

**6.4** Maliyyə nəzarəti orqanlarının qarşılıqlı fəaliyyətinin təmin edilməsi, onlar arasında vahid elektron informasiya bazasının yaradılması, informasiya mübadiləsinin təşkili
**İcra:** Nazirlər Kabineti, Hesablama Palatası, Maliyyə Nazirliyi, Vergilər Nazirliyi - 2013-2014-cü illər

**6.5** Dövlət müəssisələrinin Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına və ya Milli Mühasibat Uçotu Standartlarına uyğun olaraq tərtib edilmiş maliyyə hesabatlarının auditor rəyi ilə birlikdə dərc edilməsinə nəzarət mexanizmlərinin təkmilləşdirilməsi
**İcra:** Nazirlər Kabineti, Hesablama Palatası, Maliyyə Nazirliyi - 2013-2014-cü illər

**6.6** Yerli büdcənin tərtibinə və icrasına, o cümlədən sərf edilən vəsaitin təsdiq edilmiş büdcə göstəricilərinə uyğunluğuna, habelə bələdiyyələrin maliyyə hesabatlarının vaxtında təsdiq olunmasına

nəzarət mexanizmlərinə və prosedurlarına dair təkliflər hazırlanması
**İcra:** Ədliyyə Nazirliyi, Maliyyə Nazirliyi, Hesablama Palatası – 2013-cü il

**6.7** Dövlət büdcəsinin icrası barəsində hesabat və müvafiq qanun layihələrinin Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edilənədək dərc edilməsi
**İcra:** Nazirlər Kabineti, Maliyyə Nazirliyi – 2013-2015-ci illər

**7. Vergi nəzarəti və yoxlamaları prosesində şəffaflığın artırılması**
**Görüləcək işlər və nəticə indikatorları:**

**7.1** Vergi ödəyicilərinin zəruri məlumatla təmin edilməsi və vergi ödəyiciləri ilə təbliğat işinin təkmilləşdirilməsi
**İcra**: Vergilər Nazirliyi - 2012-2014-cü illər

**7.2** Vergi orqanlarının fəaliyyətinin Beynəlxalq Valyuta Fondunun Vergi şəffaflığı üzrə yaxşı praktika haqqında kodeksinə uyğunlaşdırılması sahəsində tədbirlər görülməsi
**İcra:** Vergilər Nazirliyi - 2012-2013-cü illər

**7.3** Vergilərin və digər icbari ödənişlərin elektron qaydada ödənilməsinin təkmilləşdirilməsi üçün müvafiq tədbirlər görülməsi
**İcra:** Vergilər Nazirliyi - 2012-2013-cü illər

**8. Mineral ehtiyatların hasilatı ilə məşğul olan sənaye sahələrində şəffaflığın artırılması**
**Görüləcək işlər və nəticə indikatorları:**

**8.1** Mineral Ehtiyatların Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsünün Azərbaycanda davamlı tətbiqi və inkişafı üçün Azərbaycan Respublikası hökumətinin ölkədə mineral ehtiyatların hasilatı ilə məşğul olan yerli və xarici şirkətlər, habelə vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığının davam etdirilməsi
**İcra:** Dövlət Neft Fondu – 2012-2015-ci illər

**8.2** Azərbaycan Respublikası hökumətinin mədən sənayesində əldə etdiyi məcmu daxilolmalar barəsində hesabatların ictimaiyyətə mütəmadi açıqlanmasının davam etdirilməsi
**İcra:** Dövlət Neft Fondu – 2012-2015-ci illər

**8.3** Mineral Ehtiyatların Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsünün Azərbaycanda tətbiqi üzrə illik hesabatların açıqlanması
**İcra:** Dövlət Neft Fondu – 2012-2015-ci illər

**9. Açıq hökumətin təşviqi üçün görülən tədbirlərlə bağlı maarifləndirmənin və əməkdaşlığın həyata keçirilməsi**
**Görüləcək işlər və nəticə indikatorları:**

**9.1** Fəaliyyət Planının icrası üzrə tədbirlərin yerinə yetirilməsi vəziyyətinin hər il üzrə dəyərləndirilməsi və ictimaiyyətə açıqlanması
**İcra:** Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya – 2012-2015-ci illər

**9.2** Açıq hökumət təşəbbüsü üzrə maarifləndirici materialların nəşri və əhali arasında paylanması
**İcra:** Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya, Nazirlər Kabineti, mərkəzi və yerli icra hakimiyyəti orqanları - mütəmadi

**9.3** "Açıq Hökumət Tərəfdaşlığı" çərçivəsində öhdəliklərin icrası istiqamətində zəruri tədbirlərin davam etdirilməsi
**İcra:** Nazirlər Kabineti, mərkəzi və yerli icra hakimiyyəti orqanları, Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya – 2012-2015-ci illər

**9.4** Fəaliyyət Planında nəzərdə tutulan tədbirlərin icrası üçün vətəndaş cəmiyyəti institutlarına maliyyə dəstəyi
**İcra:** Nazirlər Kabineti, mərkəzi və yerli icra hakimiyyəti orqanları, Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası, Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya – 2012-2015-ci illər

**Əlavə 2. Milli fəaliyyət planının əsas və alt istiqamətlərinin siyahısı**

| № | Fəaliyyət istiqamətləri | Əsas fəaliyyətlər | Sub (alt) fəaliyyətlər |
|---|---|---|---|
| 1 | İnformasiya əldə edilməsinin asanlaşdırılması | 3 | 4 |
| 2 | Dövlət orqanlarının öz fəaliyyəti barəsində ictimaiyyətə müntəzəm məlumat verməsi | 7 | 2 |
| 3 | Normativ hüquqi aktların vahid elektron bazasının fəaliyyətinin təkmilləşdirilməsi | 1 | 2 |
| 4 | Dövlət orqanlarının fəaliyyətində ictimaiyyətin iştirakının genişləndirilməsi | 4 | - |
| 5 | Elektron xidmətlərin | 5 | 2 |

| | | | |
|---|---|---|---|
| | təkmilləşdirilməsi | | |
| 6 | Maliyyə nəzarətini həyata keçirən orqanların fəaliyyətində şəffaflığın artırılması | 7 | 4 |
| 7 | Vergi nəzarəti və yoxlamaları prosesində şəffaflığın artırılması | 3 | |
| 8 | Mineral ehtiyatların hasilatı ilə məşğul olan sənaye sahələrində şəffaflığın artırılması | 3 | |
| 9 | Açıq hökumətin təşviqi üçün görülən tədbirlərlə bağlı maarifləndirmənin və əməkdaşlığın həyata keçirilməsi | 4 | 2 |
| **Cəmi:** | | **37** | **16** |

| **Əlavə 3. Monitorinqə cəlb olunmuş mərkəzi və yerli icra hakimiyyəti orqanlarının siyahısı** |
| --- |
| 1.Dövlət Gömrük Komitəsi |
| 2. Dövlət Statistika Komitəsi |
| 3. Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi |
| 4. Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri Üzrə Dövlət Komitəsi |
| 5. Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi |
| 6. Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi |
| 7. Azərbaycan Respublikası Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsi |
| 8. Azərbaycan Respublikası Diasporla İş Üzrə Dövlət Komitəsi |
| 9. Azərbaycan Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi |
| 10. Azərbaycan Respublikası Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi |
| 11. Azərbaycan Respublikası Dövlət Şəhərsalma və |

| |
|---|
| Arxitektura Komitəsi |
| 12. Azərbaycan Respublikasının Hesablama Palatası |
| 13. Azərbaycan Respublikasının Auditorlar Palatası |
| 14. Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası |
| 15. Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komissiyası |
| 16. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya |
| 17. Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidməti |
| 18. Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti |
| 19. Azərbaycan Respublikası Satınalmalar üzrə Dövlət Agentliyi |
| 20. Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyi |
| 21. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi |
| 22. Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondu |
| 23. Azərbaycan Respublikası Dövlət Neft Fondu |
| 24. Mərkəzi Bank |

| |
|---|
| 25. Mərkəzi Bank yanında Maliyyə Monitorinqi Xidməti |
| 26. Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman aparatı) |
| 27. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi |
| 28. Azərbaycan Respublikası Ekologiyavə Təbii Sərvətlər Nazirliyi |
| 29. Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi |
| 30. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi |
| 31. Azərbaycan Respublikası Ədliyyə Nazirliyi |
| 32.Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi |
| 33.Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi |
| 34.Azərbaycan Respublikası Vergilər Nazirliyi |
| 35.Azərbaycan Respublikası Təhsil Nazirliyi |
| 36.Azərbaycan Respublikası Sənaye və Energetika Nazirliyi |
| 37.Azərbaycan Respublikası Səhiyyə Nazirliyi |
| 38. AzərbaycanRespublikası Rabitə və Yüksək Texnologiyalar Nazirliyi |
| 39.Azərbaycan Respublikası Nəqliyyat Nazirliyi |

| |
|---|
| 40.Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi |
| 41.Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi |
| 42. Azərbaycan Respublikası Müdafiə Nazirliyi |
| 43. Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi |
| 44. Azərbaycan Respublikası Maliyyə Nazirliyi |
| 45.Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi |
| 46.Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti |
| 47.Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzi |
| 48. Azərbaycan Respublikasının Nazirlər Kabineti |
| 49.Abşeron rayon İcra Hakimiyyəti |
| 50. Qobustan rayonu İcra Hakimiyyəti |
| 51.Astara rayonu İcra Hakimiyyəti |
| 52. Bakı şəhər İcra Hakimiyyəti |
| 53. Binəqədi rayon İcra Hakimiyyəti |
| 54.Qaradağ rayon İcra Hakimiyyəti |
| 55. Xəzər rayon İcra Hakimiyyəti |
| 55.Xətai rayon İcra Hakimiyyəti |

| |
|---|
| 57.Nərimanov rayon İcra Hakimiyyəti |
| 58.Nəsimi rayon İcra Hakimiyyəti |
| 59.Nizami rayon İcra Hakimiyyəti |
| 60.Sabunçu rayon İcra Hakimiyyəti |
| 61.Səbail rayon İcra Hakimiyyəti |
| 62. Suraxanı rayon İcra Hakimiyyəti |
| 63.Yasamal rayon İcra Hakimiyyəti |
| 64.Sumqayıt şəhər İcra Hakimiyyəti |
| 65.Naftalan şəhər İcra Hakimiyyəti |
| 66.Gəncə şəhər İcra Hakimiyyəti |
| 67.Şəmkir rayonu İcra Hakimiyyəti |
| 68.Qazax rayonu İcra Hakimiyyəti |
| 69. Daşkəsən rayonu İcra Hakimiyyəti |
| 70.Tovuz rayonu İcra Hakimiyyəti |
| 71. Şamaxı rayonu İcra Hakimiyyəti |
| 72. Qəbələ rayonu İcra Hakimiyyəti |
| 73.Şəki rayonu İcra Hakimiyyəti |

| |
|---|
| 74.Zaqatala rayonu İcra Hakimiyyəti |
| 75. Lənkəran şəhər İcra Hakimiyyəti |
| 76. Cəlilabad rayonu İcra Hakimiyyəti |
| 77.Astara rayonu İcra Hakimiyyəti |
| 78.Quba rayonu İcra Hakimiyyəti |
| 79. Siyəzən rayonu İcra Hakimiyyəti |
| 80.Qusar rayonu İcra Hakimiyyəti |
| 81. Xaçmaz rayonu İcra Hakimiyyəti |
| 82. Yevlax şəhəri İcra Hakimiyyəti |
| 83. Mingəçevir şəhəri İcra Hakimiyyəti |
| 84. Bərdə rayonu İcra Hakimiyyəti |
| 85. Şirvan şəhəri İcra Hakimiyyəti |
| 86. Ucar rayonu İcra Hakimiyyəti |
| 87. Sabirabad rayonu İcra Hakimiyyəti |
| 88. Beyləqan rayonu İcra Hakimiyyəti |
| 89. İmişli rayonu İcra Hakimiyyəti |
| 90. Hacıqabul rayonu İcra Hakimiyyəti |

| |
|---|
| 91.Goranboy rayon İcra hakimiyyəti |
| 92. Tərtər rayonu İcra Hakimiyyəti |
| 93. Füzuli rayonu İcra Hakimiyyəti |
| 94. İsmayıllı rayonu İcra Hakimiyyəti |

## Əlavə 4. Monitorinqə cəlb olunmuş istiqmətlər üzrə qiymətləndirmənin nəticələri

| | maxolabilər | fakt | | maksimum nəticə | ortadan yüksək | orta | ortadan aşağı | minimum | | icra müddəti |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1.1.1. | 3 | 2 | | | 1 | | | | | 2012-14 |
| 1.1.2. | 3 | 2 | | | 1 | | | | | 2012-14 |
| 1.2.1. | 3 | 2 | | | 1 | | | | | 12-14 |
| 1.3.1. | 3 | 1 | | | | | 1 | | | 2013-14 |
| 1.3.2. | 3 | 0 | | | | | | 1 | | 2013-14 |
| 2.1.1. | 3 | 2 | | | 1 | | | | | mütəmadi |
| 2.2.1. | 3 | 2 | | | 1 | | | | | 2012-15 |
| 2.3.1. | 3 | 3 | | 1 | | | | | | 2012-15 |
| 2.4.1. | 2 | 1 | | | | 1 | | | | mütəmadi |
| 2.4.2. | 3 | 1 | | | | | 1 | | | mütəmadi |
| 2.5.1. | 3 | 2 | | | 1 | | | | | 2012-14 |
| 2.6.1. | 1 | 1 | | 1 | | | | | | 2013 |

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 2.7.1. | 1 | 0 | | | | | | 1 | | 2012-15 |
| 4.1.1. | 3 | 2 | | | 1 | | | | | mütəmadi |
| 4.2.1 | 2 | 1 | | | | 1 | | | | 2012-13 |
| 4.3.1. | 3 | 2 | | | 1 | | | | | mütəmadi |
| 4.4.1. | 3 | 3 | | 1 | | | | | | mütəmadi |
| 5.1.1. | 2 | 2 | | 1 | | | | | | mütəmadi |
| 5.1.2. | 2 | 2 | | 1 | | | | | | mütəmadi |
| 5.2.1. | 3 | 2 | | | 1 | | | | | 2013-15 |
| 5.3.1. | 2 | 2 | | 1 | | | | | | 2013-14 |
| 5.4.1. | 2 | 2 | | 1 | | | | | | 2013-14 |
| 5.5.1. | 3 | 2 | | | 1 | | | | | 2013-14 |
| 8.1.1. | 2 | 2 | | 1 | | | | | | 2012-15 |
| 8.2.1. | 2 | 1 | | | | 1 | | | | 2012-15 |
| 8.3.1. | 2 | 2 | | 1 | | | | | | 2012-15 |
| | | | | **9** | **10** | **3** | **2** | **2** | **26** | |

**ƏLAVƏ 5.**

**Azərbaycan Respublikası**
**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin**
**21 fevral 2014-cü il tarixli 11/7-27**
**nömrəli əmri ilə təsdiq edilmişdir**

# Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində informasiya azadlığı ilə bağlı daxili icraat Q A Y D A L A R I

## I. Ümumi müddəalar

1.1. Bu Qaydalar "İnformasiya əldə etmək haqqında", "Məlumat azadlığı haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq hazırlanmışdır və Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (bundan sonra- "Nazirlik") informasiya azadlığı ilə bağlı daxili icraat qaydalarını tənzimləyir.

1.2. Nazirlikdə informasiya azadlığı üzrə müəyyən edilmiş məsul şəxs səlahiyyətləri daxilində fiziki və hüquqi şəxslər, kütləvi informasiya vasitələri (bundan sonra Sorğuçu) tərəfindən edilən sorğu və suallara operativ, keyfiyyətlə, müvafiq qanunvericiliyin və bu Qaydaların tələblərinə uyğun olaraq cavab verilməsini təmin edir.

## II. İnformasiya azadlığı üzrə məsul şəxs

2.1. Nazirlikdə informasiya azadlığı üzrə məsul şəxs Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri tərəfindən müəyyən olunur.

**III. İnformasiya azadlığı üzrə məsul şəxsin vəzifələri**

3.2. Nazirlikdə informasiya azadlığı üzrə məsul şəxs:

3.2.1. Açıq məlumatları sərbəst, maneəsiz və hamı üçün eyni şərtlərlə verməlidir;

3.2.2. İnformasiya sorğusunu ən qısa zamanda və sorğuçu üçün ən münasib üsulla təmin etməlidir;

3.2.3. Əldə olunması qanunla məhdudlaşdırılan informasiyaları qorumalıdır;

3.2.4. Həqiqətə uyğun olmayan, natamam və ya qeyri-dəqiq informasiya verməməli, şübhə yarandığı hallarda informasiyanın düzgünlüyünü və mötəbərliyini yoxlamalıdır;

3.2.5. Səlahiyyətinə aid edilmiş məsələlər üzrə öz təşəbbüsü ilə mütəmadi olaraq informasiyanı geniş kütlə üçün açıqlamalıdır.

**IV. İnformasiyanın əldə olunması**

4.1. İnformasiya "İnformasiya əldə etmək haqqında" və "Məlumat azadlığı haqqında" Azərbaycan Respublikasının qanunlarında göstərilən qaydada verilir.

**V. İnformasiya əldə etmə haqqında sorğunun formaları**

5.1. İnformasiya əldə etmək üçün sorğu yazılı və ya şifahi şəkildə, o cümlədən elektron poçt vasitəsilə və ya telefonla verilə bilər.

5.2. Şifahi sorğu şəxsin özünü təqdim etməsi ilə Nazirlikdə informasiya azadlığı üzrə məsul şəxsə bilavasitə verilir və bir qayda olaraq şifahi şəkildə cavablandırılır.

5.3. Yazılı sorğu "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanununda göstərilən qaydada və formada tərtib olunur.

## VI. İnformasiya azadlığı üzrə məsul şəxsin sorğu edilən informasiyanı verməsi qaydası

6.1. İnformasiya sorğusu üzrə məsul şəxs yalnız onun səlahiyyətinə aid edilmiş informasiyanı verə bilər.

6.2. Sorğu məsul şəxs tərəfindən diqqətlə araşdırılır. Bunun üçün:

6.2.1. Sorğunun «İnformasiya əldə etmək haqqında» Azərbaycan Respublikasının Qanununun tələblərinə uyğun tərtib olunub-olunmadığı;

6.2.2. Tələb olunan informasiyanın informasiya ehtiyatlarında olub-olmadığı;

6.2.3. Tələb olunan informasiya informasiya ehtiyatlarında varsa, onun açıq və ya alınması məhdudlaşdırılan informasiyalara aidiyyatı;

6.2.4. Tələb olunan informasiya açıqdırsa, amma alınması məhdudlaşdırılan informasiyanın tərkibinə daxildirsə, həmin informasiyanın ayrılıb verilmə imkanları;

6.2.5. Tələb olunan informasiya informasiya ehtiyatlarında varsa və açıqdırsa, onun sorğuda göstərilən formada verilməsinin mümkün olub-olmadığı;

6.2.6. Tələb olunan informasiya informasiya ehtiyatlarında varsa və açıqdırsa, bu informasiyanın verilməsinin məsul şəxsin səlahiyyətində olub-olmaması dəqiqləşdirilir.

6.3. Məsul şəxs araşdırmaların nəticələri barəsində aşağıdakı qərarlardan birini qəbul edə bilər:

6.3.1. İnformasiyanı təqdim etmək;

6.3.2. İnformasiyanı qismən təqdim etmək;
6.3.3. İnformasiyanı təqdim etməkdən imtina etmək.
6.4. Məsul şəxs sorğu edilən informasiyaya malik olmadıqda və ya belə informasiyanı vermək səlahiyyəti olmadıqda buna səlahiyyəti olan müvafiq məsul şəxsi müəyyən etməkdə sorğuçuya kömək göstərməlidir.
6.5. Məsul şəxsin sorğu edilən informasiyanı vermək səlahiyyəti varsa, o Sorğuçunun sorğuda göstərdiyi formada informasiyanı Sorğuçuya verir. İnformasiya sorğuda göstərilən formada verilə bilməzsə, Sorğuçunun razılığı ilə verilə biləcəyi formada verilir.

**VII. Sorğuya cavab verilməsindən imtina**

7.1. Aşağıdakı hallarda sorğunun icrasından imtina edilir:
7.1.1. Sorğu əldə edilməsi qanunla məhdudlaşdırılan informasiyaya aid olduqda, yaxud sorğuçunun bu informasiyanı əldə etməyə səlahiyyəti çatmadıqda;
7.1.2. Sorğu anonimdirsə;
7.1.3. İnformasiya sahibi sorğulanan informasiyaya malik olmadıqda və yaxud həmin informasiyanın sahibini müəyyənləşdirməkdə çətinlik çəkdikdə;
7.1.4. Sorğuçunun hansı informasiyanı əldə etmək istədiyini aydınlaşdırmaq mümkün olmadıqda;
7.1.5. Sorğu olunan informasiyanın verilməsi məsul şəxsin səlahiyyətlərinə aid olmadıqda;
7.1.6. Sorğuçuya artıq belə bir informasiya verilibsə və sorğuda informasiyanı təkrar əldə etmək zərurəti əsaslandırılmayıbsa.
7.2. İnformasiya sorğusunun təmin edilməsindən imtina barəsində cavab Azərbaycan Respublikası qanunvericiliyinin müvafiq maddələri də göstərilməklə, aydın və əsaslandırılmış şəkildə tərtib

edilməlidir.

## VIII. Qaydaların pozulmasına görə məsuliyyət

8.1. İnformasiya azadlığı üzrə məsul şəxs informasiyanın verilməsindən əsassız imtinaya, vaxtında və düzgün informasiya verilməməsinə görə məsuliyyət daşıyır.